www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13-14 iyun 2015-ci il Şənbə № 128 (6156) Qiymətı 40 qəpik

**Xəbər**

## Azərbaycanlı qadın Aktau aeroportunda öldü

yazısı səh.14-də

**Gündəm**

### Bakıda I Avropa Oyunlarına start verildi



Möhtəşəm açılış töreninə dünyanın xeyli ölkəsinin rəhbərləri gəldi; prezident **İlham Əliyev:** "Azərbaycan xalqını, bütün Avropa xalqlarını təbrik edirəm; əminəm ki, bu idman yarışı dostluq, mehribanlıq bayramına çevriləcək"; ilk günün yarışlarının nəticələri...

yazısı səh.4-də

### Ceyms Uorlik Bakıya gəldi

yazısı səh.2-də

### ATƏT-in Bakı Ofisindən imtina olundu, bəs Minsk Qrupu?

yazısı səh.6-da

### Vahid Ələkbərov Xəzər layihələrini təxirə salır

yazısı səh.2-də

### Ərdoğan və Putin Bakıda nələri müzakirə edəcək...

yazısı səh.6-da

### TAP-ın tikintisinin təxirə salınmasının səbəbləri...

yazısı səh.8-də

### İyunun 16-na qədər siyasi məhbuslarla görüşlər təxirə salınıb

yazısı səh.10-da

### ATƏT diplomatlarından amerikalılara "çevriliş" ittihamı

yazısı səh.9-da

### Müsavat başqanı Brüsselə gedir

yazısı səh.10-da

### “"Gəncəbank" rəhbəri Azərbaycan məhkəməsini saymır"

yazısı səh.14-də

### Ermənistanda böyük müharibə xofu

yazısı səh.13-də

### Ölkədən kapital axını sürətlənir

yazısı səh.12-də

### Türkiyə hələ də hökumətsizdir

yazısı səh.11-də

### Saakaşviliyə daha bir yüksək vəzifə verildi

yazısı səh.2-də

## Kərimli-Həsənli cütlüyünün maskasının düşməkliyi

# MİLLİ ŞURA PUTİNİN "MOLODES"İNİ QAZANA BİLDİMİ

Cəmil Həsənlinin sədr olduğu qurumun I Avropa Oyunlarını boykot etməməsi haqda sensasion iddialar; "Putinin qatılacağı tədbiri boykot etmək onların maraqlarına ziddir; Milli Şura Kremlin layihəsidir, hələ də bu statusunu qoruyub saxlayır"; Rusiya prezidentinin təqdirini qazanmaq üçün AXCP və MŞ sədrləri "Yeganə" libaslarını soyundular...



yazısı səh.5-də

## Abşeronun icra başçısı istintaqa çağırıldı

Zakir Fərəcovun Saray bələdiyyəsinin sədrinin qətlinə görə dindirildiyi deyilir; "ona ölkədən çıxmaq qadağan edilib"

yazısı səh.3-də



### Avropa Şurası İlqar Məmmədovla bağlı qərar qəbul etdi

yazısı səh.2-də



*İqbal Ağazadə:*

### "Mən dəyərləri müdafiə edirəm, fərdləri yox"

yazısı səh.7-də



*Sərdar Cəlaloğlu:*

### "Özünü mənim oğlum kimi qələmə verməşdi ki, mühacir statusu alsın..."

yazısı səh.3-də

# İlham Əliyev prezidentlərlə ziyafətdə...

## "Statoil" SOCAR-ın əsas tərəfdaşlarından biri olaraq qalır"




**Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövnəq Abdullayev İlk Avropa oyunlarında iştirak etmək üçün Azərbaycanda olan "Statoil" şirkətinin baş icraçı direktoru Eldar Saetreni və onu müşayiət edən heyəti qəbul edib.**

SOCAR-dan "APA-Economics"ə verilən məlumata görə, R. Abdullayev "Statoil"un baş icraçı direktorunu yeni vəzifəsi münasibəti ilə təbrik edib.

SOCAR və "Statoil" arasında uzunmüddətli əməkdaşlıq münasibətlərindən söz açan R. Abdullayev Xəzər hövzəsindən hasil olunan neftin və qazın dünya bazarlarına şaxələndirilmiş marşrutlar üzrə çıxarılmasına imkan verən ixrac neft və qaz kəmərləri sisteminin qısa müddətdə yaradıldığını və uğurla fəaliyyət göstərdiyini bildirib. O, son illər "Şahdəniz", "Azəri-Çıraq-Günəşli" layihələri çərçivəsində və SOCAR-ın müstəqil işlədiyi yataqlarda görülən tədbirlər nəticəsində ölkəmizin böyük nailiyyətlər qazandığını vurğulayıb. Bildirilib ki, "Statoil" "Şahdəniz" layihəsini tərk etsə də, "Azəri-Çıraq-Günəşli" və digər layihələrdə SOCAR-ın əsas tərəfdaşlarından biri olaraq qalır.

"Statoil"un baş icraçı direktoru rəhbərlik etdiyi şirkətin Azərbaycandakı fəaliyyətindən danışıb və yaradılmış şəraitə görə təşəkkürünü bildirib. O, "Şahdəniz" layihəsini yüksək qiymətləndirərək, Avropanın enerji təhlükəsizliyində bu layihənin böyük rol oynadığını qeyd edib.

E. Saetre Azərbaycan Qaz Təchizatı Şirkəti və Cənubi Qafqaz Boru Kəməri Şirkətinin operatorluğunu üzərinə götürdüyünə görə SOCAR-a təşəkkürünü bildirib və yüksək peşəkarlıq səviyyəsinə malik SOCAR komandasının bu işin öhdəsindən layiqincə gələcəyinə inandığını söyləyib. O, AÇG və Azərbaycanda iştirakçısı olduqları digər layihələrdə əməkdaşlığın uğurla davam edəcəyinə əminliyini vurğulayıb, SOCAR-a müvəffəqiyyətlər arzulayıb.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## Avropa Şurası İlqar Məmmədovla bağlı qərar qəbul etdi



**Avropa Şurası Nazirlər Komitəsi iyunun 11-də "İlqar Məmmədov Azərbaycana qarşı" məhkəmə işi ilə bağlı qərar qəbul edib. Virtualaz.org bildirir ki, bu barədə vəkil Fuad Ağayev özünün facebook səhifəsində yazıb.**

Vəkil bildirib ki, Nazirlər Komitəsi ilk öncə müxalif siyasətçi olan ərizəçiyə qarşı tətbiq olunmuş cinayət prosedurlarının təməlini sarsıdan pozuntuların təsdiqləndiyini, xüsusilə 5-ci maddə ilə bağlı, 18-ci maddənin pozulduğunu, ərizəçinin bundan sonra hər hansı yubanmaya yol verilmədən azadlığa buraxılması və ona qarşı törədilmiş pozuntuların nəticələrini aradan qaldırmaq üçün gərəkən başqa zəruri tədbirlərin görülməsi ilə bağlı komitənin Azərbaycanda səlahiyyətli hakimiyyət orqanlarına ünvanladığı təkidini xatırladıb. F.Ağayevin yazdığına görə, məhkəmə qərarında həmçinin bu işə baxılmasına 2015-ci ilin sentyabr ayında keçiriləcək 1236 saylı toplantıda qayıtmaq və əgər o vaxta qədər ərizəçi azadlığa buraxılmasa, daha ciddi tədbirlərin görülməsini müzakirəyə çıxarmaq qərara alınıb.

Xatırladaq ki, İlqar Məmmədov 2013-cü il fevralın 4-də İsmayıllı hadisələri ilə bağlı həbs edilib.

Məhkəmə onu Cinayət Məcəlləsinin 221 (xuliqanlıq) və 315.2 (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) maddələri ittiham edərək 2014-cü il martın 17-də 7 il azadlıqdan məhrum edib.

## Saakaşviliyə daha bir yüksək vəzifə verildi



**Odessa vilayətinin qubernatoru Mixail Saakaşvili Ukraynada yaradılacaq Dövlət Müəssisələrində İslahatlara Nəzarət Şurasına rəhbərlik edəcək. Azvision.az "RİA Novosti"yə istinadən xəbər verir ki, bu barədə Ukraynanın iqtisadi inkişaf və ticarət naziri Ayvaras Abramaviçus bildirib.**

"Biz bu gün İslahatlara Nəzarət Şurasını yaradırıq. Bu dövlət idarəçiliyi və islahatlar sahəsində geniş təcrübəyə malik ekspertlər qrupudur. Onlar Ukraynanı, onun qarşısında duran çağırışları yaxşı bilirlər", - deyə nazir qeyd edib.

Abramaviçusun sözlərinə görə, şura dövlət müəssisələrində effektivliyin artırılmasına nəzarət edəcək. Yeni orqanın səlahiyyətlərinə idarəetmə strukturunda islahatın aparılması, özəlləşdirmə və audit işləri də daxildir.

**Avropa Oyunlarının açılışında iştirak etmək üçün Azərbaycanda səfərdə olan dövlət liderləri üçün ziyafət təşkil edilib. Azvision.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, dövlət başçılarının şərəfinə verilən ziyafətdə Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva da iştirak ediblər. Prezident İlham Əliyev ziyafətdə çıxış edib.**



Azərbaycan prezidenti İlham Əliyev I Avropa Oyunlarının rəsmi açılış mərasimində iştirak etmək üçün ölkəmizə gələn Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb.

APA-nın məlumatına görə, dövlət başçısı Türkiyə prezidentini hakim Ədalət və İnkişaf Partiyasının parlament seçkilərində qələbəsi münasibətilə şəxsən təbrik edib.

Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. Əlaqələrimizin bundan sonra da bütün sahələrdə daha da genişlənəcəyinə əminlik ifadə olunub.

Söhbət zamanı "Bakı-2015" birinci Avropa Oyunlarının əhəmiyyəti vurğulanıb. Prezident İlham Əliyev Türkiyə idmançılarına uğurlar arzulayıb. Bu tədbirin ölkələr və xalqlar arasında əməkdaşlığın genişlənməsi işinə töhfə verdiyi qeyd edilib.

Dövlət başçıları ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Prezident İlham Əliyev birinci Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşüb.

İlham Əliyev həmçinin, I Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovla da görüşüb.

APA-nın məlumatına görə, görüş zamanı Azərbaycan prezidenti türkmənistanlı həmkarının Bakıya səfərinə çox böyük əhəmiyyət verdiyini deyib.




## "Cənub Qaz dəhlizi" vasitəsilə əlavə olaraq İran, İraq və İsrail qazının nəqli planlaşdırılır"

**Azərbaycanın energetika naziri Natiq Əliyev I Avropa Oyunlarının açılış mərasimində iştirakı çərçivəsində Bakıda səfərdə olan Norveçin "Statoil ASA" neft və qaz şirkətinin yeni prezidenti və baş icraçı direktoru Eldar Saetreni qəbul edib.**

Energetika Nazirliyindən "APA-Economics"ə verilən məlumata görə, görüşdə N. Əliyev "Statoil" şirkətinin "Azəri-Çıraq-Günəşli" neft yataqları bloku, "Şahdəniz", "Abşeron" qaz yataqları, Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz Boru Kəməri layihələrində tərəfdaş kimi fəaliyyətini xatırladıb. O bildirib ki, dünyaya xam neftin, Avropaya isə qazın əsas ixracatçılarından biri olaraq "Statoil"in təcrübəsinin öyrənilməsi çox əhəmiyyətlidir.

N. Əliyev "Cənub Qaz dəhlizi" vasitəsilə Avropanın qaz təchizatının yaxşılaşdırılacağını diqqətə çatdırıb. Bildirib ki, bu dəhlizlə əlavə olaraq İran, İraq və İsrail qazının nəqli planlaşdırılır.

E. Saetrei isə beynəlxalq qaz bazarlarındakı mövcud vəziyyətdən danışaraq qeyd edib ki, hazırda Avropa üçün enerji təhlükəsizliyinin təminatı və qaz asılılığının azaldılması prioritet məsələdir.

## "Bundestaqın qətnaməsi Avropa Oyunlarına kölgə salmaq məqsədi daşıyır"

**Azərbaycanın Berlindəki səfirliyi Almaniya Bundestaqı tərəfindən qəbul olunan qətnamə ilə bağlı mövqeyini açıqlayıb. Səfirliyin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, dünən Almaniya Bundestaqında CDU/CSU (Xristian Demokratlar və Xristian Sosialistlər İttifaqı) və SPD (Sosial Demokratlar Partiyası) fraksiyalarının irəli sürdüyü "Azərbaycanda insan hüquqlarının qorunmasını tələb etmək" adlı qətnamə qəbul edilib.**

"Belə bir qətnamənin qəbulu Almaniya və Azərbaycan arasındakı dostluq münasibətlərinin ruhuna uyğun deyil və ikitərəfli münasibətlərin gərginləşməsinə xidmət edir. Bu hər şeydən əvvəl orada əksini tapan ittihamların düzgün olmaması və boş mülahizələrə əsaslanmasından qaynaqlanır. Qətnamənin qəbul olunması vaxtının ölkəmizdə keçiriləcək ilk Avropa Oyunlarının açılışı ilə bir vaxta düşməsi ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən bu idman tədbirinin keçirilməsini kölgə altına almaq və bununla Azərbaycan-Almaniya, habelə Azərbaycan-Avropa İttifaqı münasibətlərinə xələl gətirmək məqsədi daşıyır. Bu bizdə dərin təəssüf hissi doğurur.

Bir daha bəyan etmək istəyirik ki, biz konstruktiv, dəqiq ifadə olunmuş və faktlara əsaslanan tənqidə qarşı deyilik. Lakin sözügedən qətnamə Azərbaycanı kor-koranə şəkildə hədəfə alır və ölkəmizə qarşı əsassız ittihamlar irəli sürür. Bu ittihamları qətiyyətlə rədd edirik. Heç bir şəxs ölkəmizdə öz jurnalist və ya siyasi fəaliyyətinə görə həbs olunmayıb və olunmur. Almaniya Federativ Respublikasının ali siyasi orqanlarından olan Bundestaqın qeyri-dəqiq və səhv məlumatlara əsaslanaraq ölkəmizi ittiham etməsi qəbuledilməzdir".

**Səfirliyin bəyanatında qeyd olunub ki, Azərbaycan 24 illik müstəqilliyi dövründə mühüm demokratik inkişaf yolu keçib və kiçik zaman ərzində bütün sahələrdə böyük nailiyyətlər əldə edib:** "Ölkəmizdə yeni katolik, rus-ortodoks kilsələrinin tikintisi və bərpası, bizim regionda ən böyük yəhudi sinaqoqunun Bakıda açılması Azərbaycanda hökm sürən dini tolerantlığın yüksək səviyyəsindən xəbər verir. Bu sahədə həyata keçirilən işləri və göstərilən səyləri nəzərə almadan sözügedən qətnamə ölkəmizi dini azadlığın mövcud olmamasında qınayır. Bu, qətnamənin məsələyə necə qərəzli yanaşdığının sübut edən nümunələrdən biridir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür və könüllü şəkildə demokratiya yolunu seçib. Azərbaycan bu gün də bu yolu davam etdirir".

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

## Ceyms Uorlik Bakıya gəlib

**ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlik dünən Ermənistandan Bakıya gəlib. APA-nın xəbərinə görə, həmsədr öz twitter səhifəsində yazıb ki, Azərbaycana səfər çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin həllinə dair müzakirələr aparacaq.**

## Vahid Ələkbərov Xəzər layihələrini təxirə salır

**Rusiyanın "LUKoil" şirkəti Xəzərdə qaz yataqlarının işlənməsini rentabelli olmaması üzündən təxirə salır.**

ANS PRESS-in məlumatına görə, bu barədə şirkətin vitse-prezidenti Leonid Fedun bildirib.

"LUKoil" şirkətinə yaxın mənbə xəbər verib ki, şirkət "Xvalınsk" (ehtiyatları 332 milyard kubmetr qaz və 18 milyon ton kondensat), "Kuvikina" (160 milyard kub metr qaz və 107 milyon barel kondensat) və "107-ci kilometr" yataqlarının işlənməsini təxirə salır.

"LUKoil" şirkətinin Xəzərdə 8 neft-qaz layihəsi var. 2010-cu ildə şirkət Xəzərdə Korçagin adına yataqda neft hasilatına başlayıb. İkinci ən böyük neft layihəsi - "Filanoski" adına neft yatağını 2016-cı ilin sonunda istismara verilməsi nəzərdə tutulur. 2017-ci ilə kimi Xəzərdə geoloji kəşfiyyat fəaliyyətinə "LUKoil" 22 milyard rubl xərcləməyi nəzərdə tutur.

L.Fedin deyib ki, qaza xərclənməsi nəzərdə tutulan vəsait neftə yönəldiləcək. "Rakuşeçnoya" yatağının (ehtiyatları 15 milyon ton neft) istismara verilməsi 2029-cu ildən 2021-ci ilə keçirilib. "Kuvıkina" yatağında hasilata 2018-ci ildə, "Xvallinsk" yatağında isə 2019-cu ildə başlamaq nəzərdə tutulurdu.

Hələ ötən ildə şirkətin prezidenti Vahid Ələkbərov demişdi ki, "Lukoil"in "Qazprom" şirkətinin sisteminə yönəlmiş xüsusi qaz nəqletmə sistemi olacaq. Onların xammalını "Stavrolen" ("LUKoil" şirkətinin neft-kimya müəssisəsi) zavoduna tədarükü nəzərdə tutulmur.

Xatırladaq ki, "LUKoil" şirkətinin prezidenti həmyerlimiz Vahid Ələkbərovdur.

## Ronaldo İrəvanda saxlanıldı

**İrəvanda Portuqaliya yığma futbol komandasının hücumçusu Kriştiano Ronaldonu saxlayıblar. ANS PRESS-in məlumatına görə, futbolçu sənədlər yoxlanılan zaman digər komanda yoldaşlarından daha çox gözlədilib. Yoxlamanın uzandığını görən futbolçunun səbri tükənib və o, barmağı ilə şüşəyə vurmağa başlayıb.**

Aydın olub ki, problem işləməyən kompyuterdə olub. Bundan sonra o, digər terminala yaxınlaşıb. Burada Ronaldonun bütün sənədlərini qısa müddətdə yoxlayıblar.

Baş verən anlaşılmazlığa görə, məşhur futbolçu Protuqaliya yığmasının mindiyi avtobusa ən sonda yaxınlaşıb.

YENİ MÜSAVAT
N 128 (6156) 13 iyun 2015



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Abşeronun icra başçısı istintaqa çağırıldı

## Zakir Fərəcov Saray bələdiyyəsinin sədrinin öldürülməsinə görə dindirilib; ona ölkədən çıxmaq qadağan edilib

**Abşeronun icra başçısı Zakir Fərəcov Saray bələdiyyəsinin sədri Vəsilə Əbilhəsənova və həyat yoldaşı Vəfadar Əbilhəsənovun qətli ilə əlaqədar istintaqa çağırılıb. Bu haqda istiqlal.az məlumat yayıb. Sayt yazır ki, Zakir Fərəcov qətl işi ilə bağlı dindirildikdən sonra sərbəst buraxılsa da, onun ölkədən çıxışına qadağa qoyulub.**

Yada salaq ki, Saray bələdiyyəsinin sədri və onun həyat yoldaşının qətlindən sonra olayda Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun adı hallanmağa başlayıb. Qatil Fədai Hüseynovu Z.Fərəcovla bağlayan bir çox tellərin varlığı da bu haqda fikirlərin heç də əsassız olmadığını ortaya qoymuş oldu.

Bir neçə gün əvvəl cumhuriyyet.az saytı Əbilhəsənovların qətli ilə bağlı həbs olunan 35 yaşlı Fədai Hüseynovun məhkəməsində ilginc faktlar açıqlandığını yazmışdı. Qeyd olunurdu ki, F.Hüseynovun indiyədək açıq qalan 3 cinayət işi olması ilə yanaşı onun V.Əbilhəsənovanın sürücüsü və tapşırıqlarını yerinə yetirən şəxs olduğu üzə çıxıb. Eyni zamanda bu dəhşətli qətldə torpaq satışı amilinin rol oynaması Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun da adını dolayısı ilə bu işə bağlayan məqamlar ortaya çıxarır.

**Həmin yazıdan sitat:** "Əvvəla, məlum olur ki, Fədai Hüseynov bir vaxtlar Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun bacısı Nərgiz xanımın da sürücüsü işləyib, qardaşları Abşeron rayonunda, xüsusən də Saray qəsəbəsində torpaq satışı məsələsində Z.Fərəcovun Abşeron Rayon İcra Hakimiyyətinin Memarlıq və tikinti şöbəsində işləyən bacısı oğlu Elgiz Fərəcov və qətlə yetirilən bələdiyyə sədri ilə əlbir işləyiblər. Bu həmin Elgiz Fərəcovdur ki, ötən il mətbuatda onun hüquq-mühafizə orqanları tərəfindən saxlanıldığına dair məlumatlar yayılmışdı. Həmin məlumatlarda bildirilirdi ki, onun həbsinə səbəb qeyri-qanuni torpaq satışı təşkil etməsi və bu zaman başqasının etibarından sui-istifadə etməsi olub. Şikayət əsasında həyata keçirilən əməliyyat tədbiri nəticəsində həbs olunan E.Fərəcov dayısı Zakir Fərəcovun müdaxiləsi nəticəsində bir müddət sonra sərbəst buraxılıb. Z.Fərəcov bu hadisənin onun nüfuzuna və gələcək planlarına zərbə vuracağından narahat olaraq bacısı oğlunu həbsdən qurtarıb. Həbsdən çıxan E.Fərəcov isə əvvəlki əməllərini davam etdirib və Abşeronda torpaq biznesinin əsas fiqurlarından biri kimi fəaliyyətini davam etdirir".



Zakir Fərəcov

Baş verən dəhşətli qətl işində Z.Fərəcovun adının çəkilməsinin bir səbəbi isə bu il aprelin 29-da moderator.az saytında dərc olunan "Saray bələdiyyəsinin xanım sədri qoçu dəstəsi saxlayır" sərlövhəli yazıdır. Şikayətçi Fikrət Məmmədovun məktubu əsasında hazırlanan həmin yazıda Saray bələdiyyəsində baş verənlərdən bəhs olunur. Torpaq alverində icra başçısı Zakir Fərəcovun qohumu Elgiz Fərəcovun, onun dostu kimi qatil Fədai Hüseynovun, qardaşı Vüqar Hüseynovun və Vəsilə Əbilhəsənovanın adları hallanırdı.

Belə görünür ki, Z.Fərəcovun barəsində kifayət qədər iffaedici əsaslar olduğundan onu iş üzrə istintaqa dəvət ediblər. İcra başçısının ölkədən çıxışına qadağa qoyulması da diqqətdən kənar qalmamalıdır. İstintaq belə bir qərar veribsə, deməli, məsələ çox ciddidir. O qədər ciddidir ki, icra başçısı ölkədən gedə və geri dönməyə bilər.

Göründüyü kimi, Z.Fərəcovun adının bu dəhşətli qətl işi ilə bağlı gündəmə gəlməsini şərtləndirən çox ciddi məqamlar var və yəqin ki, həm icra başçısı, həm də onun yaxın ətrafı çox ciddi suallara cavab verməli olacaqlar.

Qeyd edək ki, faktla bağlı Abşeron Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.7-ci maddəsi (iki və ya daha çox şəxsi öldürmə) ilə cinayət işi başlanıb. F.Hüseynov haqda Abşeron Rayon Məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

❑ **E.HÜSEYNOV**

*Redaksiyadan: Zakir Fərəcovun mövqeyini çap etməyə hazırıq.*

# Saakaşvilinin 268 dollarlıq maaşı



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Odessa vilayətinin yeni qubernatoru Mixail Saakaşvili təzə və əslində prezidentlikdən daha məsuliyyətli postunda var gücü ilə işə başlayıb, islahatlara girişib. Ancaq onun maaşı nə qədər olsa yaxşıdır - cəmi 268 dollar! Yəni simvolik, bir çoxuna gülməli görünəcək bir məbləğ.**

Bu maaşla işləməyə Azərbaycanda yəqin ki, yalnız süpürgəci razı olar. Amma nə olsun? Bizdə maaşı min manatlarla ölçülən yüksək vəzifə sahibləri var ki, başçılıq etdiyi sahə zibil içindədir, rüşvət-korrupsiya bataqlığında üzür və bunun da altını illərdir yüz minlərlə sadə insan, xalq çəkir. Həmin məmurların özləri isə Saakaşvilidəki təmizliyin heç 1 faizinə sahib deyillər.

Məsələ də bundadır ki, məmurun dəyərini onun aldığı maaş, tayfası üçün gördüyü işlər müəyyən etmir, öz xalqı üçün həyata keçirdiyi işlərin dəyəri müəyyənləşdirir. İndi siz görün, 268 dollarlıq maaşla Mixail Saakaşvili Odessa vilayətini necə qabaqcıl, əhalisi rifahda bulunan diyara çevirir. Əgər sabah buna görə o, Nobel mükafatına layiq görülsə, gərək kimsə təəccüblənməsin.

Bu arada məlum olub ki, yeni qubernator Ukraynada yaradılacaq Dövlət Müəssisələrində İslahatlara Nəzarət Şurasına da rəhbərlik edəcək. Bu, əlbəttə ki, Saakaşviliyə göstərilən etimadın başqa bir göstəricisidir, onun saflığına Ukrayna xalqının inamının təzahürüdür. Bir insan, bir siyasətçi və məmur üçün ən qiymətlisi də elə bu deyilmi?

Belə bir inamı Saakaşvili haqq edib. Baxın, hakimiyyətdə olduğu dövrdə o, Gürcüstanı haradan hara gətirdi, ölkəni hansı relsdən hansı relsin üstünə qoydu, korrupsiya-rüşvətin kökünü necə və hansı inad-zəhmətin hesabına kəsdi.

Hakimiyyətdən gedəndən sonra da gürcü xalqı onun apardığı geridönməz islahatların bəhrəsini görməkdədir. Fakt budur ki, Gürcüstan siyasi-vətəndaş, media, iqtisadi-biznes azadlıqlarına görə necə ildir bölgənin ən qabaqcıl, favorit dövləti sayılır, Güney Qafqazın demokratiya mərkəzi, ən ucuz və keyfiyyətli turizm ölkəsi hesab olunur.

Gürcüstana bölgənin ən təhlükəsiz və insan haqlarının qorunduğu ölkəsi kimi artıq Azərbaycan da daxil, postsovet respublikalarından, Ermənistandan siyasi mühacirlər getməyə başlayıb. Halbuki regionun paytaxtı, mərkəzi dövləti adına ən böyük potensiallı ölkə məhz Azərbaycandır.

Nə yazıq ki, biz bu şansları bir-bir, ildən-ilə əldən verməkdəyik - Qərbdə inteqrasiyadan danışıb Qərbin özünə savaş açmaqla, universal *(ümumbəşəri)* dəyərlərdən gecə-gündüz söz açıb onlara arxa çevirməklə, demokratik dünyanın haqlı tənqid-iradlarını "biz suveren, müstəqil dövlətik" deyib qulaqardı eləməklə, həbsxanaları günahsız yerə tutulan siyasilərlə, QHT-çilər və jurnalistlərlə doldurub onları məhkəmə hökmü olmadan belə, "cinayətkar" elan eləməklə.

Amma bu zaman nədənsə bizim Qarabağ kimi böyük bir dərdimizin varlığı unudulur. Əgər həqiqətən biz əlahiddə suveren, müstəqil dövlətiksə və heç kim daxili işlərimizə qarışa, dost iradı belə bildirə bilmək haqqına sahib deyilsə, o zaman daxili işimizə kimi Qarabağ konfliktini təkbaşına necə yoluna qoyacağıq görəsən?

Avropa Parlamentinin prezidenti Martin Şultsa "keçmiş alkoqolik" deməklə deyil ki. Həmin Avropa Parlamenti Ermənistanı işğalçı kimi tanıyan, ondan öz qoşunlarını Azərbaycan ərazisindən qeyd-şərtsiz çəkməyi, bir daha ora hərbi qüvvə göndərməməyi tələb edən qətnamə də qəbul edib. Bu da var axı...

Sözü ona gətiririk ki, Azərbaycanda da hər şey, hər kəs öz yerində olsaydı, məmur ordusu, diplomatik korpus öz işi ilə məşğul olsaydı, qanunlara və Konstitusiyaya əməl eləsəydi, ölkəmiz ətrafında xoşagəlməz situasiya da yaranmazdı... Vəzifənin böyük-kiçikliyi önəmli deyil, önəmlisi - o postda ləyaqətlə çalışmaq, öz xalqına, sənə ümid bəsləyən insanlara təmənnasız qulluq eləməkdir. Saakaşvili kimi.

İş də ondadır ki, Saakaşvili doğma yurdundan uzaqlarda, özünün 268 dollarlıq maaşı ilə, Odessa qubernatoru qismində də öz ölkəsinin adına işləyir, Gürcüstanın beynəlxalq nüfuzu üçün, onun suverenliyi və ərazi bütövlüyü üçün çalışır. Bu minvalla Abxaziya və Cənubi Osetiya Gürcüstanın tərkibinə daha tez qaytarılacaq, nəinki Dağlıq Qarabağ Azərbaycanın tərkibinə.

# "Özünü mənim oğlum kimi qələmə vermişdi ki, mühacir statusu alsın..."

## Sərdar Cəlaloğlu: "Daha çox hakimiyyətdə təmsil olunan şəxslərin övladları saxta vəsiqə düzəltdirib, mühacir statusu almağa cəhd edir"

### "Eşitdim ki, saxta blank, möhür düzəldib və orda "sex" açıb"

**Son günlər Müsavat Partiyası ətrafında başlanan "saxta mühacir qalmaqalı" diqqət çəkir. Belçika Miqrasiya İdarəsindən partiyaya yollanan sorğu və onun ardınca rəhbərlik tərəfindən aşkarlanan saxta partiya vəsiqəsi xeyli mübahisələrə səbəb olub. İsveçrədəki mühacir Elbəyi Həsənli partiyanın səlahiyyətli nümayəndələrini saxta vəsiqə satmaqda ittiham edir, qarşı tərəf isə bunu təkzib edərək, faktlar tələb edir və E.Həsənlini məhkəmə ilə hədələyir.**

Maraqlıdır, digər müxalifət partiyalarında vəziyyət necədir? Onlara da saxta vəsiqə ilə bağlı beynəlxalq qurumlardan müraciət olunubmu? Ümumiyyətlə, status almaq üçün onların adından nə zamansa istifadə edilibmi?

**ADP sədri Sərdar Cəlaloğlu** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, vaxtilə partiya nümayəndələrindən biri onun möhürünü saxtalaşdırıb, partiya blanklarını çap edərək, bu alverlə məşğul olub: "Məlum oldu ki, belə bir "sex" açıblar. Eldəniz adlı bir oğlandır. Keçmiş ADP-çi idi. Gedib orda bu işlə məşğul idi. Möhür və blanklar onda olub. O da onlardan istifadə edərək, camaata ADP vəsiqəsi satıb. Xaricdə də bəzi adamlar var ki, partiyanın biletlərini saxtalaşdırırlar".

**Müsahibimizin sözlərinə görə, xaricilərlə görüşəndə hər zaman bu faktı qabardırlar. S.Cəlaloğlu dedi ki, partiya adından kimlərinsə istifadə etməməsi üçün onlara sorğu göndərilməsi xahiş olunur:** "Bu günə qədər, son 10 ildə bir göndərdikləri-



Sərdar Cəlaloğlu

mizin, gerçək ADP-çi mühacirlərin sayı 100-ə yaxındır. Amma bizim adımızdan minlərlə adam gedə bilər. Bizim vəsiqələrimizi, arayışları satırlar. 4-5 il bundan qabaq bu faktın üstünü açdıq və bununla bağlı polisə müraciət etdik".

**S.Cəlaloğlu dedi ki, həbsxanadan çıxandan sonra xarici ölkələrdən birinə gedəndə bu faktı daha qabarıq şəkildə hiss edib. ADP sədrinin sözlərinə görə, hətta bəzi adamlar özlərini onun övladı kimi təqdim etmişdilər:** "Mən bunu eşidəndə təəccübləndim. Partiyaya aidiyyəti olmayan adamların yalandan hekayə uydurub, vəsiqə düzəldib, mühacirətə getməsini öyrəndim. Bəzi adamlar özlərini mənim övladım kimi təqdim etmişdilər. Amma bütünlükdə bizim adımızdan gedən adamlarla bağlı iş məhkəməyə düşəndə, bizimlə əlaqə saxlayırlar, dəqiq məlumat veririk. Hətta mənim 2 müavinim 2013-cü ildə mühacirətə gedib və mən onların İsveçdəki məhkəmələrində iştirak etmişəm".

**Müsahibimiz saxta ADP-çi mühacirlərlə bağlı hər hansı ifşa kampaniyası aparmaq fikrində deyil. Onun fikrincə, bunun forması da mümkün deyil:** "Mən bilmirəm ki, kim saxta gedib, bizim adımızdan necə istifadə ediblər. Gərək xaricdəki miqrasiya xidməti bizə sorğu göndərsin, biz onun əsasında arayışın saxta, yoxsa həqiqi olduğunu açıqlayaq. Amma bu günə qədər dəfələrlə də sorğu göndərilib. Kimlərsə bizim partiyanın üzvü deyilsə, yalandan özünü ADP-çi kimi təqdim edibsə, biz bu barədə məlumat vermişik, ona görə də həmin adamlar ordan qovulub. Özünü bu cür təqdim edənlərin çoxu hakimiyyətdə təmsil olunan şəxslərin övladları olub. Onlar korrupsiyadan əldə etdikləri pulları rahat xərcləyə bilmək üçün belə bir yola baş vurublar. Amma ümumilikdə partiyanın içində saxta sənəd hazırlamaq, bu işi alverə döndərmək halları olmayıb".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 128 (6156) 13 iyun 2015

# Bakıda I Avropa Oyunlarına start verildi












## Möhtəşəm açılış törəninə dünyanın xeyli ölkəsinin rəhbərləri gəldi; **prezident İlham Əliyev:** "Azərbaycan xalqını, bütün Avropa xalqlarını təbrik edirəm; əminəm ki, bu idman yarışı dostluq, mehribanlıq bayramına çevriləcək"; ilk günün yarışlarının nəticələri...

**İyunun 12-də Bakıda I Avropa Oyunlarının açılış mərasimi keçirildi. Oyunlar stadionunda təşkil olunan törəndən öncə Heydər Əliyev Mərkəzində "Bakı-2015" birinci Avropa Oyunlarının rəsmi açılış mərasimi iştirakçılarının şərəfinə Azərbaycan prezidenti İlham Əliyevin adından rəsmi qəbul təşkil olunub.**

Prezident və "Bakı-2015" birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva ilk Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün ölkəmizə gələn dövlət və hökumət başçıları, tanınmış ictimai-siyasi və idman xadimləri ilə görüşüblər.

Rəsmi qəbulda I Avropa Oyunlarına dair qısa videoçarx nümayiş etdirilib.

**Prezident rəsmi qəbulda çıxış edərək qonaqları salamlayıb:** "Bu hadisə münasibətilə ilk növbədə bütün Azərbaycan xalqını, bütün Avropa xalqlarını təbrik edirəm. Əminəm ki, bu idman yarışı dostluq, mehribanlıq bayramına çevriləcək".

**Dövlət başçısı bu oyunların Bakıda keçirilməsinin təsadüfi olmadığını vurğulayıb:** "Hesab edirəm ki, burada idmançılarımızın uğurları ilə yanaşı, digər amillər də öz rolunu oynamışdır. Azərbaycanda çox inkişaf etmiş idman infrastrukturu yaradılmışdır. Bizim bölgələrimizdə 50-yə yaxın olimpiya idman mərkəzi yaradılmışdır. Bakıda isə bütün idman qurğuları, idman obyektləri ən yüksək standartlara cavab verir. Oyunların iştirakçıları və qonaqlar özləri bunu təsdiq edəcəklər".

**Prezident şəhər infrastrukturunun Oyunlara hazırlıq zamanı inkişaf etdirildiyini qeyd edib:** "Nəqliyyat sistemimizin, xidmət sektorunun təkmilləşdirilməsi, yeni otellərin açılışı əlbəttə ki, gələcəkdə Azərbaycana gələn turistlərin sayını böyük dərəcədə artıracaq. Eyni zamanda Avropadan gələn minlərlə qonaq Azərbaycanı yaxından tanıyacaq. Əminəm ki, onların bir çoxu gələcəkdə Azərbaycana qayıtmaq istəyəcəklər".

**Prezident Azərbaycanın hazırkı siyasi vəziyyətindən də danışıb:** "Ölkənin uğurlu dayanıqlı inkişafı təmin edilir. İqtisadi inkişafımız da xalqımızı sevindirir. Bu il iqtisadiyyat 5 faizdən çox artmışdır. Son 10 il ərzində isə dünya miqyasında Azərbaycan iqtisadiyyatı ən sürətli templərlə inkişaf etmişdir və 3 dəfədən çox artmışdır. Bütün bu amillər, əlbəttə, bizə imkan verir ki, biz bu Oyunları yüksək səviyyədə keçirək. Biz buna çalışmışıq və əminəm ki, qonaqlar Oyunları böyük maraqla izləyəcəklər. Bir önəmli amili də qeyd etmək istəyirəm. Bu da Oyunlara ictimaiyyət tərəfindən verilən dəstəkdir. Azərbaycan xalqı birinci Avropa Oyunlarının Bakıda keçirilməsini ürəkdən alqışlayır. Bu, son iki il ərzində bir növ ümumxalq məsələsinə çevrilmişdir. Oyunların məşəlini bütün bölgələrdə, o cümlədən Bakıda qarşılamaq üçün iki milyona yaxın insan küçələrə, meydanlara çıxmışdır ki, məşəli salamlasın və Oyunlara öz güclü ictimai dəstəyini versin... Oyunlardan sonra əlbəttə ki, həyat davam edəcək. Azərbaycan digər böyük mötəbər idman yarışlarına ev sahibliyi edəcək. 2016-cı ildə Bakıda Ümumdünya Şahmat Olimpiadası keçiriləcək. Eyni zamanda 2016-cı ildə "Formula-1" yarışı Bakıda keçiriləcəkdir. 2017-ci ildə İslam Həmrəylik Oyunları, 2020-ci ildə isə futbol üzrə Avropa çempionatının qrup mərhələsi və dörddəbir final yarışları Bakıda keçiriləcək. Yəni Azərbaycan artıq idmanın inkişafı istiqamətində öz rolunu dünyaya göstərib. Əminəm ki, Bakıya gələn və gələcək yarışlarda iştirak edəcək idmançılar, qonaqlar ölkəmizdən ən xoş təəssüratlarla ayrılacaqlar. Bizim üçün bu tarixi bir gündə bütün idmançılara, bütün qonaqlara bir daha "Xoş gəlmisiniz" deyirəm, idmançılara uğurlar arzulayıram. Qoy güclü qalib gəlsin. Sağ olun".

*Açılışa aşağıdakı dövlət rəhbərləri və rəsmiləri qatılıblar:*

*- Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan.*

*- Rusiya prezidenti Vladimir Putin*

*- Serbiya prezidenti Tomislav Nikoliç*

*- Monteneqro prezidenti Filip Vuyanoviç*

*- Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Mladen İvaniç*

*- Belarus prezidenti Aleksandr Lukaşenko*

*- Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədov*

*- Tacikistan prezidenti Emoməli Rəhmon*

*- Lüksemburq Hersoqluğunun Böyük Hersoqu Anri*

*- Monako Knyazlığının şahzadəsi II Albert*

*- San-Marinonun dövlət başçıları - Kapitan regentləri Andrea Bellutsi və Roberto Venturini*

*- Bolqarıstanın baş naziri Boyko Borisov*

*- Gürcüstanın baş naziri İrakli Qaribaşvili*

*- Qırğızıstanın baş nazirinin birinci müavini Tayrıbek Sarpaşov,*

*- Çexiya Parlamentinin Deputatlar Palatasının sədri Yan Hamaçek*

*- Slovakiya Parlamentinin sədri Peter Pelleqrini,*

*- Avstriya parlamentinin ikinci Prezidenti Karlhaynts Kopf*

*- Latviya Parlamenti sədrinin müavini Andrey Klementiyev*

*- Meksika Senatının xarici əlaqələr komitəsinin sədri Qabriela Kuevas Barron*

*- Ukrayna Dövlət Fiskal Xidmətinin sədri*

*- Ukrayna Ali Radasının Ukrayna-Azərbaycan parlamentlərarası əlaqələr üzrə qrupun başçısı Roman Nasirov*

*- Qətərin Olimpiya Komitəsinin sədri Şeyx Cəuan bin Həməd Əl Tani*

*- Səudiyyə Ərəbistanı Krallığının Şahzadəsi Abdullah bin Mosaad*

*- Küveytin informasiya və gənclər naziri Şeyx Salman Əl-Hamoud Əl Sabah,*

*- Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov*

*- Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu*

*- Oman Sultanlığının idman işləri naziri şeyx Səad bin Məhəmməd bin Səid Əl-Mərduf Əl-Sədi*

*- İran İslam Respublikasının idman və gənclər naziri Mahmud Qudərzi*

*- Türkiyənin energetika naziri Taner Yıldız*

*- Böyük Britaniyanın xarici işlər nazirinin müavini və parlamentin üzvü Tobias Martin Elvud*

*- Vatikanın mədəniyyət nazirinin müavini Luis Marie Vilyam Sançez De Toca*

*- İSESCO-nun baş direktoru Əbdüləziz Osman Əl-Tüveycri*

*- Latviyanın sabiq Prezidenti Valdes Zatlers*

*- Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax*

*- Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti şeyx Əhməd əl-Fahad Əl-Sabah və digər yüksək səviyyəli qonaqlar iştirak ediblər.*

*Törənə Azərbaycan müxalifətinin lider və funksionerləri - Pənah Hüseyn, İqbal Ağazadə, Mirmahmud Mirəlioğlu, Tahir Kərimli, Sərdar Cəlaloğlu, Əli Əliyev, Razi Nurullayev və digərləri qatılıblar.*

***

Musavat.com-un Olimpiya Stadionuna akkreditə olunan əməkdaşının məlumatına görə, saat 21:00-da 68 min tamaşaçı tutumuna malik stadionda "Bakı-2015" I Avropa Oyunlarının rəsmi açılış mərasimi başlayıb. Mərasim muğam ustası Alim Qasımovun ifasında muğamla başlayıb.

Mərasimin aparıcıları Murad Dadaşov və Hüsniyyə Məhərrəmova tamaşaçıları salamlayıblar və ardından mərasim "Natiq" ritm qrupu və müğənni Elnur Hüseynov mahnılar ifa ediblər. 50 nağaranın ritmik sədaları altında 24-dən 0-a qədər geriyə sayım başlayıb. Bu, Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 24 ilini göstərir.

Sonra tamaşaçılar Azərbaycan prezidenti İlham Əliyev, Azərbaycanın birinci xanımı, "Bakı-2015" I Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və Avropa Oyunları Komitəsinin prezidenti Patrik Hikkini salamlayıblar.

Azərbaycanın Dövlət Himni səsləndirilib, Dövlət Bayrağı qaldırılıb. Daha sonra təxminən 5500 km məsafəni qət edən Avropa Oyunlarının məşəlini sonuncu məşəlçi - paralimpiyaçı İlham Zəkiyev stadiona gətirib. Səhnəyə İlkin Aslanovun canlandırdığı dahi Nizami çıxıb, onun əlindəki tərəzinin hər gözündə bir gəlincik fiquru olub. Onlar Azərbaycan ədəbiyyatının məşhur incilərindən birinin qəhrəmanları olan nakam sevgililər - Leyli və Məcnundur. Leyli obrazını Patrisiya Zarnoviçian, Məcnun obrazını Markez Skot canlandırıblar.

Ardınca stadionda I Avropa Oyunlarında iştirak edən 50 ölkəni təmsil edən 6 min idmançının paradı başlayıb.

Açılış mərasimində çıxış edən Mehriban Əliyeva qonaqları salamlayıb və geniş nitq söyləyib, yarış iştirakçılarına uğurlar arzulayıb.

Açılışda Lady Gaga və digər dünya şöhrətli musiqiçilər çıxış ediblər.

Mərasim gecə saat 2 radələrinədək davam edib.

***

İyunun 12-də ilk Avropa Oyunlarının Sinxron üzgüçülük növündə komanda yarışları keçirilib. Azərbaycan komanda yarışında iştirak etməyib. Bakı Su İdmanı Mərkəzində sinxron üzgüçülük dueti və komanda yarışı keçirilib. Sinxron duetdə I yer Rusiya, II yer Ukrayna III yeri isə İspaniya idmançıları qazanıb. Yarışlarda Azərbaycan idmançıları 71,4333 xalla 20 duet arasında 18-ci yerdə qərarlaşıb.

❑ **Hazırladı: Elşad MƏMMƏDLİ**

YENİ MÜSAVAT
N 128 (6156) 13 iyun 2015

## Kərimli-Həsənli cütlüyünün maskasının düşməkliyi

**Milli Şura (MŞ) rəhbərləri vaxtaşırı Azərbaycanda yeganə müxalifət olduqları haqda pafoslu bəyanatlar verirlər. Onlar ictimai rəyə yeritmək istəyirlər ki, əsas və barışmaz müxalifət özləridir, yerdə qalan partiyalar, siyasətçilər psevdo-müxalifətdirlər. Onların bu iddiaları zaman-zaman mübahisələrə səbəb olur. Özlərini Azərbaycan müxalifətinin "JEK"i kimi aparan AXCP və MŞ az qala hər kəsə müxalifətçi arayışı verməklə məşğuldurlar. Arayış xəstəliyindən qurtula bilmədikləri üçün də hazırda müxalif düşərgədə birlikdən əsər-əlamət yoxdu. Hakimiyyətə qarşı olan bütün siyasi təşkilatlar dağınıq, pərakəndə halda fəaliyyət göstərir. Bu bir tərəfə qalsın, müxalifət düşərgəsi adlanan bu came bir-birinə qarşı düşmənçilik münasibətindədir. Məhz Əli Kərimlinin və Cəmil Həsənlinin təfriqəçiliyi sayəsində vəziyyət bu cür acınacaqlıdır.**



# Milli Şura Putinin "molodes"ini qazana bildimi

Cəmil Həsənlinin sədr olduğu qurumun I Avropa Oyunlarını boykot etməməsi haqda sensasion iddialar; "Putinin qatılacağı tədbiri boykot etmək onların maraqlarına ziddir; Milli Şura Kremlin layihəsidir, hələ də bu statusunu qoruyub saxlayır"; Rusiya prezidentinin təqdirini qazanmaq üçün AXCP və MŞ sədrləri "Yeganə" libaslarını soyundular...

***

I Avropa Oyunları əslində Azərbaycan müxalifəti, həmçinin ictimai və media sektoru üçün bir lakmus kağızı rolunu oynadı. Bu oyunlar ərəfəsində kimin özünü necə apardığı göz önündədir. Tağı Əhmədovun siyasi və mətbu leksikonda özünə yer almış ifadəsi ilə desək, artıq siyasi burcutmalara yer yoxdur - hər kəs hara qədər müxalifətçi, hara qədər azərbaycançı, hara qədər dövlətçi olduğunu ortaya qoydu. Bu oyunların ölkəmizdə keçirilməsinin beynəlxalq aləmdə Vətənimizə gətirəcəyi dividentlər bir yana, tədbirin daxili auditoriya üçün də xeyri kifayət qədər oldu. Xalq kimin kim olduğunu, hansı partiyanın gerçək, hansının saxta müxalifət olduğunu gördü, fərq etdi.

***

AXCP-nin də təmsil olunduğu Milli Şuranın I Avropa Oyunlarını boykot etməməsinin səbəbləri haqda redaksiyamıza sensasion bilgilər və iddialar daxil olub. Həmin iddiada nələr var? Mənbəmiz bildirir ki, oyunlar ərəfəsində hamı gözləyirdi ki, Milli Şura boykot çağırışı edəcək. Çünki bu qurum və orda əsas skripka rolunu öz üzərinə götürmüş AXCP özünün radikal, hakimiyyətə qarşı barışmaz mövqedə olduğunu ictimai rəyə sırımağa çalışır. Lakin gözlənilmədiyi halda MŞ və onun rəhbərləri I Avropa Oyunları ərəfəsində özlərini kifayət qədər "ağıllı" və "təmkinli" apardılar. Qurum, onun başında dayananlar boykot havaları əsdirmədilər. Bunu gizlətmək, ictimai fikri yayındırmaq üçün imitasiya etdilər - məsələn, min nəfərlik mitinq keçirdilər, nəzarətlərindəki qəzetdə hakimiyyətin ünvanına radikal yazı yazdırdılar, bəzən özləri yazdılar bu məqalələri başqa-başqa imzalarla, fəqət boykot sözünün "B" hərfini ağızlarına almadılar, əvəzində ağızlarına su alıb susdular.

Əcəba, niyə? Bu güzəştin arxasındakı səbəb, məntiq nədir? Nədən hər fürsətdə İlham Əliyevin, onun iqtidarının üzərinə gedən, prezidentin fəaliyyətinin gözdən salınması üçün az qala şeytanla belə əməkdaşlıq edən bir partiya, onun yedək təşkilatı Avropa Oyunlarını boykotdan imtina etdi?

**Bu sualların cavabını mənbəmiz sensasion sayıla biləcək iddialar və bilgilərlə cavablandırır. Bildirir ki, Milli Şura əvvəldən bir Rusiya proyekti olub:** "Bunu zatən bütün cəmiyyət bilir. Milli Şura bir anti-Azərbaycan proyekti idi. Düzdü, ilk vaxtlar bu təşkilatda Rusiyaya bağlı olmayan siyasətçilər, partiyalar da təmsil olunurdu, amma onlar düşünürdülər ki, başlamaqda olan bir hərəkatda iştirakdan imtina etməkdənsə, orda təmsil olunub prosesləri ölkəmizin, xalqımızın xeyrinə dəyişdirə bilərlər. Amma sonrakı proseslər sübut etdi ki, Milli Şura nəzərdə tutulan hədəflərə vara bilmədi. Öncə Rüstəm İbrahimbəyovun Bakıya qayıtmaqdan imtina etməsi bu təşkilata inama azaltdı, prezident seçkisindən sonra isə AXCP-nin MŞ-yə sahiblənmək istəkləri orda təmsil olunan təşkilatları qurumdan çıxmağa vadar etdi. Üstəlik, Milli Şura sırf seçkiyə hesablanmış təşkilat olduğu üçün onun sonrakı fəaliyyəti effekt vermirdi. Əksəriyyətin rəyi belə idi ki, MŞ seçkidən sonra buraxılsın, amma AXCP sədri və Cəmil Həsənli buna qarşı çıxırdılar, təşkilatın qalmasında israrlıydılar. Çünki bu qurumu həm Rusiyaya, həm Qərbə hakimiyyətin əsas alternativi kimi təqdim etməyə çalışırdılar. Milli Şura Əli Kərimlinin, Cəmil Həsənlinin şəxsi bizneslərini həyata keçirmələri üçün ticarət obyekti rolunu oynayırdı. Bu cür yağlı tikədən niyə imtina edəydilər ki..."

**Mənbəmiz bildirir ki, I Avropa Oyunlarının açılış mərasiminə Rusiya prezidentinin də qatılacağı Milli Şura rəhbərliyini boykotdan imtinaya vadar edib:** "Bunun əvəzinə Milli Şuranın adından növbətçi bir bəyanat yayıldı, amma həmin sənəddə boykot çağırışı yoxdur. Azərbaycanda siyasi məhbusların olduğunu iddia edən, repressiv siyasi şəraitin hökm sürdüyünü hər addımda söyləyən bir təşkilat məhz Putinin "molodes"ini qazanmaq üçün bu addımı atdılar. Düzdür, istər Əli Kərimlinin, istər Cəmil Həsənlinin Qərblə əlaqələrinin olduğu inkar olunmur. Fəqət bu, üzdə belədir, onlar da eynilə iqtidardakılar kimi anlayırlar ki, ABŞ, Avropa Azərbaycanda siyasi situasiyanı dəyişmək imkanında deyil. Buna resursları yoxdur. Rusiya isə ölkəmizdə istənilən vəziyyəti dəyişdirməyə imkanı çatan ölkədir, necə deyərlər, Rusiya qulağımızın dibindədi, əlini uzatsa Bakıya çatar".

**Mənbəmiz bir məqama da aydınlıq gətirdi:** "Cəmil Həsənlinin iqtidardakı bir qrupla əlaqəli çalışması haqda yazılanlar doğrudur. Bilirsiniz, siyasətdə çoxbaşlı oyunlar mümkündür. Bir siyasətçi, bir siyasi partiya, təşkilat öz maraqlarını, iddialarını həyata keçirmək və manevr imkanlarını genişləndirmək üçün müxtəlif dövlətlərlə, ayrı-ayrı qurumlarla, hətta fərdlərlə əlaqə saxlaya bilər, onlarla gizli-aşkar əməkdaşlıq edər. Amma bu halda da mütləq bir ünvan əsas olur - həmin ünvanla əməkdaşlıq, əlaqə daha dərinə işləyir. Milli Şura üçün prioritet qüvvə hazırda Moskvadır. Siz baxmayın onlar mitinqlərində Avropa Birliyinin bayraqlarını dalğalandırırlar. O bayraqlar gözdən asılmış pərdə rolunu oynayır, Əli Kərimlinin, Cəmil Həsənlinin və orda təmsil olunan başqa siyasətçilərin ürəyində Rusiyanın bayrağı dalğalanır. Təbii ki, sevgi, rəğbət yox, sırf praqmatik maraqların yaratdığı hava o bayrağı dalğalandırır".

**Mənbəmiz daha bir sensasion iddiasını bizimlə bölüşdü:** "Səfir Arif Məmmədovun qəfildən hakimiyyətə asi çıxması, onun AXCP tərəfindən dəstəklənməsi, müraciətlərinin "Azadlıq" qəzetində hər gün çap olunması, sizcə, təsadüfdürmü? Arif Məmmədovun müraciətlərindəki aksentə diqqət edin - Əli Kərimlinin və Cəmil Həsənlinin xitablarında istifadə etdikləri sözlər var o müraciətlərdə. Çünki həmin müraciətlər AXCP-nin mətbəxində hazırlanır, sonra onunla razılaşdırılır və yayılır. Bu proses başlayandan A.Məmmədovun keçmişi haqda araşdırmalar aparıldı, onun Rusiyanın adamı olması haqda iddialar səsləndirildi. Yaxın günlərdə bununla bağlı daha səs-küylü məlumatların yayılacağı istisna deyil. Arif Məmmədovun Abbas Abbasovla əlaqələri haqda bilgilər var, bundan sonra bu prosesin hara gedib çıxdığı bütün açıqlığı ilə bilinəcək".

**Sonda bir qeydimizi yazaq. Müxalifətin aparıcı qüvvəsi kimi özünü təqdim edən Milli Şura və onun rəhbərləri öz mənafeləri üçün hər addıma gedirlər, hər kəslə əməkdaşlığı məqbul sayırlar. Hətta Rusiya prezidenti V.Putinin diqqətini çəkmək üçün öz prinsiplərindən, elan etdikləri siyasi kursdan asanca imtina edirlər. Fəqət öz dar, firqə maraqları üçün Azərbaycanın, xalqın mənafeyini asanlıqla tapdamağa hazırdırlar. Putinin gözünə girmək üçün hər şeyə hazır olan Kərimli-Həsənli cütlüyü İlham Əliyevə münasibətdə özlərini güzəştsiz lider kimi təqdim edirlər. Nə var, nə var hansısa siyasi dələduz bunlara "Putin sizi iqtidar edəcək" vədi verib, başlarını aldadıb.**

❑ Siyasət şöbəsi

## Atbulaqla Atletlər kəndini səhv salan sürücü...



Xalid KAZIMLI

**Atletlər kəndindəki qəza baş verməzdən bir gün əvvəl Bakıya gələn qonaqların ehtiyatlı olmasına dair məsləhətlər nəzərdə tutan bir vərəqə yayılmışdı və orada yol keçərkən ehtiyatlı olmaq tövsiyə olunurdu.**

Ancaq bu, turistlər, əcnəbi qonaq-tamaşaçılar üçün idi. Avstriyalı idmançıların ağlına belə gəlməzdi ki, səki ilə getdikləri yerdə üzbəüz gələn avtobus sürətlə burulacaq və onları vurub atacaq.

Onların prizmasından bu, gözlənilməz qəzadır. Heç kəs onları ehtiyatlı olmamaqda qınaya bilməz.

Burada bircə nəfər ehtiyatlı olmalı adam vardı, o da həmin o son model avtobusun məsuliyyətsiz sürücüsü idi. O da ehtiyatlı olmadı, avtobusu illərlə necə idarə edirdisə, elə etdi. Nəticədə özünü də bədbəxt günə qoydu, yazıq idmançıları da.

Qəzanın videogörüntüləri yayılıb. Hər şey açıq-aydın görünür. Heç bir qəza şəraiti yoxdur. İdmançılar səkiylə gedir. Şəhərciyin arasında yolda isə nə bir maşın var, nə də sürücünün diqqətini yayındıra biləcək piyada, yaxud it-pişik. Ancaq adam avtobana çıxıbmış kimi qazlayır, 10 metrdən sonra dönəcəyini bilə-bilə əyləci basmır, gəldiyi kimi də dönür və qəza törədir.

Bu şəxsə bəraət yoxdur. Ona görə yox ki, o, uzun müddətdən bəri üstündə əsdiyimiz Avropa Oyunlarının başlanması ərəfəsində qanqaraçılıq yaratdı və ölkəmizin adını batırdı, sırf ona görə ki, öz məsuliyyətsizliyi və səriştəsizliyi ilə insanları şikəst etdi.

Onun yerində Azərbaycan vətəndaşları, hər birimizin əzizləri də ola bilərdi. Necə ki, illərdir, olur. Son illərdə bəlkə də avtobus qəzası baş verməyən günləri tapmaq olar, amma həftə tapmaq olmaz. Az qala günaşırı belə hadisələr olur.

Bu cür xəbərləri qəzetçilər adətən "Daha bir avtobus qəzası" başlığı ilə verirlər və artıq "daha bir"lərin hesabını itiriblər.

Media illərdir bu mövzuda yazır. Bir-iki il öncə jurnalist araşdırmaları ortaya çıxarmışdı ki, paytaxtda marşrut avtobuslarında çalışan yüzlərlə sürücünün heç sürücülük vəsiqəsi yoxdur, vəsiqəsi olanların da əksəriyyətinin sənədi isə əslində avtobus idarə etmək üçün deyil.

Bu gerçəklik ortaya çıxandan sonra guya ki, tədbirlər görüldü, nəqliyyat şirkətləri sənədi qaydasında olmayan sürücüləri kənarlaşdırdı, ancaq bu, problemin həlli üçün yetərli olmadı.

Daha bir araşdırma nəticəsində bəlli oldu ki, avtobus sürücüləri yol hərəkəti qaydalarını kobudcasına pozur, hətta yolu işıqforun qırmızı işığına məhəl qoymadan keçirlər, istədikləri vaxt yolun düz ortasında saxlayıb sərnişin götürür-endirirlər və heç bir cəza almırlar.

Buna görə də avtobus sürücüləri kütləvi şəkildə özlərini qanun-qaydaların fövqündə hiss edir, imtiyazlı sayırlar.

Atletlər kəndində baş verən qəzanın mayası məhz buradadır, sürücülərin beyninə həkk olunub ki, onlar maşını istədikləri kimi sürə bilərlər.

Görünür, avstriyalı idmançı qızları vuran sürücü sadəcə Atletlər kəndi ilə Atbulaq kəndini qarışdırıb, elə bilib ki, burda da elə sürə bilər.

Azdan-çoxdan dünyanı, xüsusilə də Avropanı gəzən oxucularımız şəhadət verə bilərlər, mədəni ölkələrdə nəzərdə tutulmuş yerlərdə piayadaya yol verməyən, səkiyə çıxıb piyadanın hərəkətinə mane olan, şəhər içində qəza törədən sürücü yoxdur. Hər kəs qanun-qaydaya hərfbəhərf, rəqəmbərəqəm riayət edir.

Bu, onlarda öz-özünə yaranmayıb. Bu xüsusda güzəştsiz davranan dövlət strukturları illərlə, bəlkə də on illərlə qayda pozanları cərimə sanksiyalarına məruz qoya-qoya, heç bir ayrı-seçkilik etməyə-etməyə ("bu, filankəsin qohumudur", "bu bizim adamdır" və s.), indiki durumun yaranmasına, hamının nizam-intizamlı olmasına nail olublar. İstənilən mədəni ölkədə, istənilən nümunivəi şəhərdə sürücüləri bir neçə ay ərzində özbaşına buraxsalar, yenə vəziyyət pisliyə doğru dəyişəcək, düzən pozulacaq.

Başqa sözlə, bu, elə məsələdir ki, işi sürücülərin mədəni səviyyəsinə, vicdanına buraxmaq olmaz. Qanun-qaydaya riayət o qədər ciddi olmalıdır ki, vicdansızlıq, məsuliyyətsizlik edən şəxslər dərhal kənara atılsın və onlar vicdansızlığı ictimaiyyətin zərər çəkməsinə səbəb olmasın.

Təəssüf ki, hər şeyə barmaqarası baxıldığı, hər şeyi yola verməyin dəb olduğu ölkəmizdə bu, hələlik mümkün deyil.



# Ərdoğan və Putin Bakıda nələri müzakirə edəcək?

## Qarabağ məsələsi, «Transxəzər» layihəsi, Ankara-Moskva münasibətləri, yoxsa...

**I Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün Azərbaycana bir sıra dövlət başçıları gəlsə də, əsas diqqət Türkiyə və Rusiya prezidentlərinə yönəlib. Məsələ burasındadır ki, son aylar, xüsusilə də Putinin 24 apreldə Çanaqqala dəvətini dəyərləndirməyib Ermənistanın saxta soyqırımla bağlı tədbirlərində iştiraka qərar verməsindən sonra iki paytaxt arasında soyuq münasibətlər hökm sürməkdədir. Hesab olunur ki, Bakı səfəri Moskva və Ankaranın münasibətlərində yeni mərhələnin başlanması baxımından mühüm rol oynaya bilər.**

Bu arada Türkiyə mətbuatında yer alan xəbərlərə görə, Türkiyə Putinə qarşı 24 apreldə İrəvandakı "soyqırım" tədbirində iştirak etdiyi üçün rəsmi mövqeyini davam etdirir. Avropa.info xəbər verir ki, Rusiyanın Ankaradakı səfiri Andrey Karlovun 12 iyun Rusiya günü münasibəti ilə səfirlikdə keçirdiyi tədbirdə hökumətdən heç kim iştirak etməyib. Bu vəziyyət diplomatik ifadələrlə Ankaranın 1915-ci il hadisələri ilə bağlı rəsmi mövqeyinin davam etdiyinin göstəricisi kimi şərh olunur. May ayında Rusiyanın faşist Almaniyası üzərində qələbəsinin 70 illiyi münasibətilə Qırmızı Meydanda keçirilən tədbirdə də çoxlu sayda ölkənin lideri iştirak etmişdi. Mərasimdə daha öncə prezident Ərdoğanın iştirak etməsi planlaşdırılırdı. Ancaq Putinin 24 apreldə İrəvandakı mərasimdə iştirak etməsi səbəbilə Ərdoğan da Moskvaya getməmişdi.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu Rusiya və Türkiyə prezidentlərinin görüşləri ilə bağlı maraqlı fikirlər səsləndirib. E.Şahinoğlunun sözlərinə görə, səfərin məqsədi kimi I Avropa Oyunlarının açılışı elan edilsə də, əsas məqsəd tamamilə başqadır:** "Putin və Ərdoğan Avropa Oyunlarının açılışına qatılmaq üçün Bakıya gəlirlər. İdman tədbiri bəhanədir. 3 dövlətin lideri arasında regional mövzuları müzakirə etmək üçün yaxşı fürsət yaranıb. Liderlərin ikili və ya üçlü görüşündə müzakirə olunacaq əsas üç sual bunlardır: 1. Rusiya Dağlıq Qarabağ münaqişəsinin həlli və işğal faktının ortadan qaldırılması məqsədilə Ermənistana təsir etməyə hazırdırmı? 2.Bunun müqabilində Azərbaycan Kremlin istəyi ilə Avrasiya İqtisadi Birliyinə üzv olacaqmı? 3. Azərbaycan və Türkiyə Türkmənistan qazının Xəzərin dibi ilə Avropaya çatdırılması və çatdırılmaması məsələsində Rusiyanın maraqlarını nəzərə alacaqlarmı? Önəmli olan Qarabağdır, Putin bu problemin həllində real addım atacaqsa, Azərbaycan və Türkiyə digər iki məsələdə Rusiyanın maraqlarını nəzərə almağa hazır olacaq".

Maraqlısı odur ki, Putinin səfəri ərəfəsində Qarabağın ətraf rayonlarının işğaldan azad olunması zərurətini məhz rusiyalı ekspertlər və deputatlar vaxtaşırı dilə gətirməyə başladı. Düzdür, Rusiya hakimiyyətinin ideoloqu A.Duqin bu rayonların azadlığına Azərbaycanın Avrasiya Birliyinə qəbulundan sonra baxılmasını təklif edib. Ancaq bir sıra digər şəxslər artıq erməniləri durdurmağı tövsiyə edirlər. Bu arada ermənilərdən də "cəsarətli" reaksiyalar gəlməkdədir.

**"Əgər Rusiya Federasiyası Dövlət Dumasının deputatı bəyan edirsə ki Qarabağı Azərbaycana qaytarmaq lazımdır, onda qoy gəlməyə və onu götürməyə cəhd eləsin".** Virtualaz.org saytı erməni KİV-lərinə istinadən bildirir ki, bunu Ermənistan parlamentində keçirdiyi brifinqdə "Daşnaksütyun" fraksiyasının katibi Arvan Vardanyan Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri, Dövlət Dumasının deputatı Dmitri Savelyevin bəyanatını şərh edərkən deyib. Xatırladaq ki, Rusiya deputatı bildirib ki, çox yaxın perspektivdə Dağlıq Qarabağ ətrafındakı 7 rayon Azərbaycana qaytarılmalıdır. **"Bu sözlər bizim üçün sıfıra bərabərdir, Savelyevin mövqeyi də həmçinin" deyə, Vardanyan vurğulayıb.**

Putinin Bakı səfəri ərəfəsində bu məlumatların dövriyyəyə buraxılması məqsədli də ola bilər. Ermənilərin boş yerdən qara-qışqırıq salmağa öyrəncəli olması çoxlarına məlumdur. Ancaq hər halda, regionun iki nəhəng dövlətinin başçısının Bakıda bölgəni təhdid edən Qarabağ konfliktinə önəm verməyəcəyi mümkün görünmür...

❑ **Cavid TURAN**

# ATƏT-in Bakı Ofisindən imtina olundu, bəs Minsk Qrupunu necə edək?

**Rasim Musabəyov:** "Məsələnin həlli Azərbaycan və Ermənistanın razılaşması nəticəsində baş vermirsə, o halda Minsk konfransı toplanmalıdır, qərarlar verilməlidir"

**Elxan Mehtiyev:** "Hakimiyyət ona da açıqlıdır, amma burada konkret olaraq 3 böyük ölkə təmsil olunduğundan qapıları onların üzünə vurmağa risk etmir"

**Rəsmi Bakı ATƏT-in Bakı Ofisindən imtina etdiyini rəsmiləşdirsə də, hələlik qurum rəsmiləri vəziyyətə aydınlıq gətirməyib. Ancaq görünən budur ki, koordinatorluq statusuna endirilmiş və barəsində ciddi ittihamlar səslənən ofisin bundan sonrakı fəaliyyəti mümkünsüz görünür.**



Belə olduqda ATƏT-in digər bir qurumunun, Minsk Qrupunun statusuna yenidən baxılmalı olduğu da zərurət kimi qeyd olunur. Bəzi ekspertlər ortada etimadsızlığın olması halında Azərbaycan üçün taleyüklü olan Qarabağ məsələsinin həllinin ATƏT-in Minsk Qrupuna həvalə edilməsini sadəcə özünüaldatma qərarı hesab edirlər. Ötən illərdə ölü bir quruma çevrilən bu qurumdan ya imtina olunması, ya da onun formatına yenidən baxılması, Türkiyə və Almaniyanın hesabına tərkibin yenilənməsi də çıxış yollarından biri sayılır. İqtidarın bir sıra təmsilçiləri 23 illik fəaliyyətsizliyi əsas götürüb qrupa etimadsızlığın zamanının çatdığını deyirlər.

**Milli Məclisin üzvü, politoloq Rasim Musabəyov hesab edir ki, iki məsələni bir-birinə qarışdırmaq lazım deyil:** "Ofislərin açılışı bilavasitə dövlətlərin dəvəti ilə həyata keçirilir. Bu, elə belə deyil ki, ATƏT harda istəyirsə, gedib nümayəndəlik açır, yaxud ofis yaradır. Əksər ATƏT-ə daxil olan dövlətlərin heç birində nə ATƏT-in nümayəndəliyi, nə ofisi var və bu, o demək deyil ki, həmin ölkələr ATƏT-dən imtina edib. Azərbaycanın da ATƏT-də, Vyanada səfir səlahiyyətli nümayəndəsi var. Digər ölkələrin də orda nümayəndələri var, hamıya aid məsələlər orda müzakirə olunur. Belə olan təqdirdə ATƏT-in Minsk Qrupu da qalır, onun missiyası da hələlik heç yerə getməyib, Azərbaycan özü də ondan imtina etməyib. Halbuki bunu da etməyə onun tam hüququ çatır".

**R.Musabəyov ATƏT-in öncədən mənasız quruma çevrildiyini xatırlatdı:** "Avropanın ən zəif qurumu elə ATƏT-dir. Bu, "soyuq müharibə" dövründə yaradılan bir qurum idi ki, Varşava paktına və NATO-ya daxil olan ölkələrin, həmçinin qoşulmayan ölkələrin iştirakı ilə bir platform yaradılsın, o da yaradılmışdı. "Soyuq müharibə" qurtarandan sonra elə bil ki, onun işi qalmadı və bunlar özləri seçdiyi ölkələrin hansınınsa başına ağıl qoymağa başladılar. Halbuki onun mandatı ilk növbədə təhlükəsizlikdir, onunla məşğul olmalıdırlar. Daha sonra dövlətlərarası öhdəliklərin həyata keçirilməsi və insan haqları, demokratiya ilə məşğul olmalıdır. Bunlar isə sonuncunu önə çəkir. Zəhmət çəkib əsas məsələ ilə məşğul olsunlar, ortalıqda işğal, 1 milyon insanın elementar insani hüquqlarından məhrum olması faktı var. Onlar öz torpaqlarına qayıtmaq imkanına malik deyil. Bunlar isə deyir yox, o məsələlər qalsın kənarda, biz gəlib başınıza ağıl qoyacağıq".

**Politoloq ATƏT-in Qarabağ məsələsində heç bir rol oynamadığını vurğuladı:** "ATƏT sadəcə bir çətirdir. Kaspirşiki təmas xəttinə göndəriblər, müşahidələr aparır. Sədrlik edən xarici işlər nazirləri də vaxtaşırı dəyişilir və ildə bir dəfə bölgəyə səfər edir, arzularını ifadə edib çıxır gedir. Məsələ ilə real məşğul olan üç ölkədir. Rusiya, Fransa, yaxud ABŞ ATƏT olmasa da, bu işi apara bilər. Azərbaycan formatın dəyişdirilməsi məsələsini bundan əvvəl də qaldırıb. Ancaq deyək ki, həmsədr 3 yox, 5 olsun. Beş həmsədrə bir sədr lazım olacaq ki, onları bir araya gətirsin. Məqsəd mübahisələri davam etdirməkdirsə, sayı lap 10-a qaldırmaq olar. Yox, əgər məqsəd məsələnin həllidirsə, həmsədrlərin sayının artırılmasında məna görmürəm. Əvvəl sədr 1 idi, ardınca 2, daha sonra isə 3 oldu. Sayın artması isə prosesə hər hansı irəliləyiş gətirmədi. Həmsədrlərin sayı 5 olanda nə baş verəcək ki?" **R.Musabəyov növbəti mərhələ üçün konkret təklif irəli sürdü:** "Məsələnin həlli Azərbaycan və Ermənistanın razılaşması nəticəsində baş vermirsə, o halda Minsk konfransı toplanmalıdır və orda hansısa qərarlar verilməlidir. Ermənistanla Azərbaycanın məsələnin həlli barədə baxışları fərqlidir. Ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsipləri toqquşur. Odur ki, konfrans olsun və qərar versin ki, Avropa Birliyi, yaxud ATƏT məsələnin həlli üçün hansı çərçivəni görür. Əslində bu, olub, Lissabon sammitində deyilib ki, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Qarabağ ermənilərinə muxtariyyət verilə bilər. Lakin Ermənistan bunu qəbul etməyib, ATƏT-ə daxil olan ölkələrin iradəsi ortaya gəlməlidir. Üstəlik, BMT-nin 4 qətnaməsi var. Ancaq bunlar deyirlər gedin, erməniləri yola gətirin. Biz erməniləri yola gətirəcəyiksə, siz nəyə lazımsınız?"

**Konfliktoloq Elxan Mehtiyev qeyd etdi ki, ATƏT-in Bakı Ofisinin Minsk Qrupu ilə bağlılığı yoxdur:** "Hakimiyyətin ATƏT ofisini, onun seçki məsələləri ilə bağlı tutumuna görə persona non-qrata etdiyi hamının inandığı arqumentdir. ATƏT ofisinin funksiyası ümumi xarakter daşıdığından və konkret bir ölkəni təmsil etmədiyindən ondan üz döndərmək asandır. Minsk Qrupu isə 1992-ci ilin martından fəaliyyət göstərərək Azərbaycan torpaqlarının işğalını pərdələmiş və indiki dönəmdə isə işğalı dünya birliyindən gizlətməyə çalışır. Hakimiyyət ona da açıqlıdır, amma burada konkret olaraq 3 böyük ölkə təmsil olunduğundan qapıları onların üzünə vurmağa risk etmir. Digər tərəfdən, torpaqlarını azad etməyə iradəsi və hünəri olmayan bir hakimiyyət üçün Minsk Qrupu ən yaxşı pərdədir. Niyə ondan imtina etsin ki?"

❑ **Cavid TURAN**

**"Yalnız Azərbaycan istiqlalını müdafiə edəcəyiz. Eyni zamanda bolşeviklərlə mübarizə edərkən və istiqlalımızı müdafiə edərkən elə etməməliyik Denikinin istiqlaliyyətini müdafiə edək. Biz yalnız Azərbaycan istiqlalını müdafiə edəcəyik. Bu nöqteyi-nəzərdən bu, qətiyyət siyasətidir, təhəssür siyasəti deyil" *(M.Ə.Rəsulzadə, 26 may, 1919-cu il parlamentin 41-ci iclasındakı çıxışından)***

**İqbal Ağazadə**



# Siyasi məhbus olsaydım...

Vətən üçün vuruşanda da, demokratiyanı, insan haqlarını müdafiə edəndə də, sosial siyasətə etiraz bildirəndə də, haqqı tapdalananların yanında olanda da, imzamı bir yerə atanda da, yalnız Azərbaycan istiqlalını düşündüm. Bəziləri kimi hirsin, kinin, qəzəbin, mənə olan münasibətin pəncərəsindən siyasətə baxmadım.

"Dövlətmi, insanmı" dilemması qarşısında qalmadım. Dövlətin insan üçün olduğunu anlayıb, insanın ləyaqətli yaşaması üçün əvvəlcə dövlətin olması zərurətini dərk etdim. Yoxsa sovet dönəmində insanlığımızı almamışdılar ki?! Ya bu gün mübarizə aparan güneyli qardaş və bacılarımız insanlıqdan çıxmayıblar ki?! Yox, sadəcə, böyük və hüquqları tanınan insan olmaq üçün mütləq milli dövlət lazımdır. Ona görə də mənim, sənin, bizlərin hüquqlarının tapdalandığına məhz dövlət olmaq üçün bəzən də dözməyə məcburuq.

**"Qoy, o bəyanata görə məni fərdlər bağışlamasın, mən zatən dəyərləri müdafiə edirəm, fərdləri yox. Vətən bağışlamasa, ruhumuz da buralardan qaçaq düşəcək. Bu gün məni başa düşməyənləri də özümə və yoluma düşmən bilmirəm. Onlar da vətənə sevgilərini belə ifadə edirlər"**

Bu gün Azərbaycanda bütün sferalarda hüquqları tapdalanan nə qədər desəniz insan var. İlk fürsətdəcə bu insanların hüquqlarını qorumağı vətəndaş və siyasi vəzifəmiz bilirik. Hər addımda çalışırıq ki, Azərbaycan insanının yanında olaq. Hakimiyyətin strukturlarından da ardıcıl olaraq bunu istədik, tələb etdik. Tələb etdik ki, azad, demokratik, güvənli Azərbaycan dövləti quraq.

Biz heç vaxt hakimiyyət və dövlət anlayışını qarışıq salmadıq. Lakin hakimiyyətin səhvləri ucbatından Azərbaycan dövlətinin də kimsənin ayaqları altına atılmasını qəbul etmərik. Heç kim iddia etməsin ki, bu gün dünya Azərbaycanda insan haqlarının qorunması üçün ayağa qalxıb. Biz 2000-2003-cü illərdə də mövqeləri görmüşük, bu gün də fərqindəyik.

Rusiya ilə qərbin savaş açdığı zaman, biz qərbi tərcih edirik. Ən doğru olan da budur. Çünki nicatımız demokratik dünyanın yanında yer almaqdan keçir. Təhlükənin şimaldan gəldiyini bilirik.

Bəs nədən hamı Azərbaycanın Rusiyanın yanında yer almasına çalışır?! Niyə bizi Rusiyanın qucağına sürükləyirsiniz?! Kimsə doğrudanmı fərqində deyil ki, Avropada əleyhimizə əsas iş aparan məhz Azərbaycanı Rusiyadan ayrı görmək istəməyənlərdir?

İnsan haqlarını qorumaq, siyasi məhbusları azad etmək üçün Almaniya, Böyük Britaniya, Fransa, İtaliya kimi dövlət başçılarının Bakıya gəlişi və rəsmi, qeyri-rəsmi görüşlərdə prezidentlə insan haqları, demokratiyanın vəziyyətini müzakirə etmələri yaxşı idi, yoxsa bir bəyanat daha təsirli gücə malikdir?!

Bəlkə əslində hamımız onların gəlişi üçün çalışmalı idik?! Bəlkə vahid məktub da imzalamalı idik ki, mütləq Azərbaycana gəlin və cənab İlham Əliyevlə insan haqlarını hamınız müzakirə edin?! Əgər insan haqları və demokratiyanı dəyər olaraq qəbul edirsinizsə, əgər bizim demokratik dünyanın yanında olmağımızı istəyirsinizsə, Rusiya təhlükəsini real sayırsınızsa, mütləq gəlin. Gəlin ki, bizi Avropadan və Avropa dəyərlərindən kimsə qopara bilməsin. Bəlkə Avropa dəyərlərindən uzaq durmaq istəyən Azərbaycan iqtidarını zorla da olsa Avropadan ayrılmağa qoymamalıyıq?!

Axı Avropa siyasi coğrafiyasının alternativi Rusiyadır. Hamı bunu bilə-bilə yanlış yapan hakimiyyətin daha çox yanlış yapmasını və ölkənin ziyan çəkməsini istəyir?!

### Yenə qrup və firqə marağı?!!

Siyasi məhbusların hüquqlarını müdafiə edərkən onların da mübarizə apardığı dövlət maraqlarını necə güdaza vermək olar? İqtidardan fərqimiz nədir? Onlar burda Avropa strukturları qarşısında piket keçirərkən, biz də Avropada dövlətimiz əleyhinə qərar çıxarın, demirikmi? Yox, cənablar, məni inandırmayın ki, strukturların qərarları iqtidarlara qarşıdır. Əbülfəz Elçibəyin devrilməsi qərarını çıxaran xarici strukturlar ziyanın böyüyünü Azərbaycana vurmadılarmı?! 907-ci əlavə qəbul olunanda sevinənlər onun iqtidara yox, Azərbaycana zərərinin şahidi olmadılarmı?

İnsan haqlarının pozulması ilə bağlı iqtidara qarşı kəsiləcək cəzaların bədəlini də sən, mən, biz, nəhayətdə, Azərbaycan ödəməyəcəkmi?

Mənə sual ünvanlaya bilərsiniz - bəs haqqı tapdalanan yüzlərlə vətəndaşımız nə olsun?

Haqqı tapdalanan vətəndaşlarımızın 9 milyon olmaması üçün fədakarlıq da etməyi bacarmalıyıq. Yüzlər, minlər toplumun hüquqları üçün vuruşursa, əgər səmimidirsə, nədən ağrı-acını udmamalı, gələn təhlükəni görməməli, öz azadlığımızdan cəmiyyət azadlığı üçün keçməyi bacarmalıyıq?

Sabah müharibə başlasa orda günahsız insanlar var deyib kim savaş uçaqlarını havaya qaldırmayacaq ki? Kim atdığı güllənin dinc sakinə dəyəcəyindən qorxub silahını geri çevirəcək ki??

Sizcə bizim ərazi bütövlüyümüzə səs verməyənlər Dağlıq Qarabağın bizim olduğunu bilmirlərmi? Yoxsa XXI əsrdə Xocalıdan xəbərləri yoxdur, yoxsa erməni-rus birləşmələrinin ərazimizin 20%-ni işğal etdiyini görmürlər?

Bəlkə 1915-ci il qondarma soyqırımı tanımaqla xalqlararası dostluğa deyil, nifaqa səbəb ola biləcək qərarlarının fərqində deyillər? Fərqindədirlər, lakin ölkələrinin cəmiyyətlərinin, coğrafiyalarının, hakimiyyətlərinin maraqları bunu tələb edir. Yoxsa hamısını, vicdansız və nadan hesab edirsiniz? Mən onları qınamıram - hər kəs əvvəlcə öz toplumunun marağını nəzərə alır.

Azadlıq həm də qurban tələb edir. Mücadilə aparanların hamısı zaman-zaman nələrisə qurban vermədimi?

1993-cü ildə Əbülfəz Elçibəy özünün, komandasının hakimiyyət haqqından müstəqillik üçün keçmədimi??

Mən hələ siyasi məhbusların azadlığını istəyən onların içərisində Azərbaycanı sevməyən nə qədərinin olduğunu da demirəm.

İntiqamın, Xədicənin, Leylanın köynəyini geyən neçələri pasportlarında Dağlıq Qarabağ vizası gəzdirir? Fərqindəsinizmi? Ramil Səfərov ekstradisiya olunarkən onların əksəriyyətinin - həm də qurumaların - mövqeyini unutdunuzmu? Mübariz İbrahimova görə bəyanatları xatırlayırsınızmı??

Bir də istərdim onu xatırlayasınız ki, bunlardan ayrılsaq, Azərbaycanın 20 faizini işğal edən Rusiya ac canavar kimi gözünü bizə dikib.

Mən millətindən, dinindən asılı olmayaraq **AZADLIĞI** dəyər kimi yaşadanların hamısının qarşısında baş əyirəm.

Lakin fərdlərin azadlığı üzərində spekulyasiya edib müstəqilliyimizi yıpratmaq istəyənlərə qarşı amansızam. Qoy, o bəyanata görə məni fərdlər bağışlamasın, mən zatən dəyərləri müdafiə edirəm, fərdləri yox. Vətən bağışlamasa, ruhumuz da buralardan qaçaq düşəcək. Bu gün məni başa düşməyənləri də özümə və yoluma düşmən bilmirəm. Onlar da vətənə sevgilərini belə ifadə edirlər. Onlar üçün Vətən sevgisi özlərinin və yaxınlarının hüquqlarından başlayırsa, mənim üçün Vətən sevgisi mənim hüquqlarımdan keçə bildiyim yerdən başlayır. Bir gün gələcək hamı Vətəni hüquqlarından keçə bildiyi yerdən sevə biləcək. Onda Vətən istiqlalı, milli məfkurə təhlükə altında olmayacaq. Mən, sən, övladlarımız bu ölkəyə demokratiyanı mütləq gətirəcəyik, istiqlali isə gətirməyimiz böyük şübhə doğurur. Mənə də cinayətkar deyin, məni də həbs edin, hüquqlarımı məhdudlaşdırın, haqlarımı əlimdən alın, amma Azərbaycan istiqlalına təhlükə olacaq mövqeləri sərgiləməyin. Qoyun, Avropanın yanında olaq, ora getməyən iqtidarı məcbur edək, daha Avropanı da məcbur etməyək ki, bizi yanınızda saxlamayın. Haqqımızdan, hüququmuzdan keçək ki, Vətənin haqqı-hüququ verilsin.

**"Vətən təhlükədə olarkən hamımız bir olmağı bacarmalıyıq. Bu gün Avropa Oyunları deyil, Azərbaycan uğrunda oyunlar gedir. Bu oyunlarda hüquqlarından keçənlərin haqqını Vətən mütləq verəcək"**

### Ən sonda...

**Rəsulzadə yazırdı:** "Belçikalılara: yanmaq, dağılmaq, ölmək, qərq olmaq, amansız düşmənin rəhimsiz həmlələrinə məruz qalmaq - bunlar hamısı məmləkəti, müdafiəsiz düşmənə təslim etməkdən uludur. Bu kiçik qitəli, fəqət böyük qəlbli millətin iştə düsturu budur: "Vətən yolunda ölmək var, dönmək yoxdur!"

***P.S.** Mən siyasi məhbus olsaydım, beynəlxalq strukturlara bir müraciət göndərərdim - mənim haqqım üzərindən millətimin və dövlətimin haqqına girməyin.*

***P.S.S.** İqtidarlar nə qədər pis olsa da Avropa siyasi coğrafiyasını biz çoxdan haqq etmişik. Yanımızda olun ki, səsimizi zorla başqa yerdən eşidilməyə məcbur etməsinlər. Vətən təhlükədə olarkən hamımız bir olmağı bacarmalıyıq. Bu gün Avropa oyunları deyil, Azərbaycan uğrunda oyunlar gedir. Bu oyunlarda hüquqlarından keçənlərin haqqını Vətən mütləq verəcək.*

**❑ İqbal Ağazadə,**
**Milli Məclisin üzvü,**
**Ümid Partiyasının sədri**

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Kafka stadionda

Zamin HACI
zaminhaci@gmail.com

"Bu kağız sənə yetişən kimi bu xəbəri vətən qardaşlarıma və xüsusən möhtərəm Hacı əmimə yetirəsən ki, ayın yeddisində ya səkkizində şeyx cənablarının pişvazına çıxıb, o pak vücuda layiqincə ehtiram göstərsinlər ki, bəlkə ağanın fəzilətinin kəramət və mərhəmətindən mənim həmşəhərlilərim bibəhrə qalmasınlar"
**(Mirzə Cəlil, "Ölülər")**

**İqtisadçı dostumuz Natiq Cəfərlinin bir, pis çıxmasın, azarı var: Azərbaycanda hansısa absurd hadisəni görəndə özünün facebook divarına yazır ki, gorun çatlasın, Kafka, yerin məlum, Kafka və sairə. Bununla Natiq bəy dahi almandilli çex yazıçısının əsərlərindəki fantaziya gücünə, yaratdığı əcaib-qəraib səhnəciklərə, tipajlara işarə edir. Guya Kafka gəlib bizdəki absurdları görsə heyrətə düşərmiş.**

Amma mən hesab edirəm, dostumuz yanılır. Frans Kafka Azərbaycanda doğulsaydı ya Vergilər Nazirliyində müfəttiş işləyib, dükanlardan pul yığıb bəy kefində yaşayardı, ya da ölüsü Rəşad Məcid onu "525-ci qəzet"də korrektor vəzifəsinə təyin edərdi, həftədə bir dəfə də özünün "12 dekabr" hekayəsini oxuyub bezdirərdi, bir gün Kafkanı "Koroğlu" körpüsünün altından ölü tapardıq. Ən yaxşı halda Kafka Azərbaycan Yazıçılar Birliyi Qazax rayon şöbəsinin Astanbəyli kənd özəyinin sədri işləyib saz çalardı. Çünki bizim ölkəmiz heç bir ədəbi düşüncəyə, xəyal gücünə-zada sığışan deyildir.

Hətta Kafka keçmiş cəbhəçi Fazil müəllimin çevrilmə gücünü görüb BQP-yə üzv yazılardı, məşhur hörümçəyini tapdalayıb öldürərdi.

Örnək üçün, dünənki yazımda mən Avropa Oyunlarına görünməmiş yaltaq münasibətimizdən bəhs etmişdim. Axşam isə xəbər lentində gördüm ki, oyunlar münasibəti ilə Bakıya gələn ali qonaqlardan biri Belarus diktatoru Aleksandr Lukaşenkodur. O Lukaşenko ki, Avropaya buraxmırlar, rəsmi embarqo qoyulub, hətta bu səbəbdən 2012-ci il London olimpiadasına da gedə bilməmişdi. Avropanın embarqo qoyduğu adam Avropa oyunlarının açılışına gəlir, sən də Kafkadan danışırsan... Hələ Avropanın üz qarası Bolqarıstan, Monteneqro kimi korrupsioner hökumətlərin nümayəndələrini demirəm. İran və Qırğızıstanın gənclər-idman nazirlərinin qonaq çağırılması da başqa anekdotdur. Elə bil VİP loja doldurmaq yarışı varmış.

Bu arada Avropanın Britaniya, Fransa, Almaniya kimi lotularını da gərək qeyd edək. Avropa Oyunlarında ən çox pul qıranlardan biri ingilislərdir. Tək yarışların təşkilat komitəsində 200-dən çox Britaniya vətəndaşı "işləyir", müftə Azərbaycan pullarını kisə-kisə, siçovul kimi aparırlar. O cümlədən, yarışın texniki, inventar hissəsinin də böyük hissəsi həmin ingilis-fransız şirkətlərindən alınıb. Ancaq bu namərdlər neylədilər? Yapistlərə əməllicə atdılar. İngiltərə ümumiyyətlə barmağına doladı ("ingilis barmağı" ifadəsi həm də bu cür yaranır), yoxsa açılışa parlament sədrinin köməkçisinin müavini tipində 77-ci dərəcəli bir çinovnik göndərmək nə deməkdir? Fransa və Almaniyadan isə qatılan dövlət rəsmisi deyəsən heç yoxdur. Görünür AzTV barıtı çox eləyib, Almaniya tamam dağılıb.

Keçən yazımda qeyd elədiyim ideyanın davamı olaraq yazıram: bəlkə biz Avropanı ümumən boykot edək, Belarus, Rusiya, İran, Qazaxıstan kimi ölkələrlə birləşib özümüzün yeni, postmodernist Avropamızı qayıraq? Putinin Avrasiya İttifaqı bunun rüşeymi ola bilər. Amma adı mütləq Avropa olmalıdır ki, indi bizə ağız büzən avropalılar yanıb tökülsünlər. Biz onlara əsl Avropanı göstərərik.

Bayaq Britaniyalı lotulardan bəhs elədim, bloqqer dostumuz Mehman Hüseynovun aşkarladığı lətifəvari olayı da yazaq. Mehman bəy şəhərdə iki ingilis gənci tutub, danışıb. Bunlar Britaniya boks yığmasının tərkibində gəliblər. Gənclər Mehman bəyə deyib ki, kollecdə oxuyuruq, bir gün direktor gəldi dedi Azərbaycanda yaxşı, müftə yemək-içmək var, arada da çıxıb bir-iki yumruq atarsınız, kim getmək istəyir əlini qaldırsın, biz də gəldik.

Bax, həmin gəncləri Bakı Sənaye-Pedaqoji Texnikumunun Sumqayıt filialında təlim-tədris prosesinə cəlb eləsək heç burdan çıxıb getməzlər. Nə var axı dumanlı Albionda? Aydın Bakı səmasının gözəlliklərindən həzz almaq lazımdır.




# TAP-ın tikintisinin təxirə salınmasının səbəbləri...

## "Bu layihələri alver predmetinə çevirirlər..."

**Azərbaycan qazının Avropa bazarlarına çıxışını ləngidə biləcək daha bir hadisə baş verib. Bu dəfə də Azərbaycanın Avropa üçün strateji əhəmiyyət kəsb edən qaz ixracı marşrutuna yaradılan maneədə Yunanıstanın əli var. Bildirilir ki, Bolqarıstan və Yunanıstan bu ölkələrin qaz kəmərləri sistemini birləşdirən kəmərin tikintisinə dair investisiya razılaşmasının imzalanması qeyri-müəyyən səbəbdən təxirə salıblar.**

Sənədin imzalanması iyunun 12-də nəzərdə tutulurdu. İmzalanmanın təxirə salındığı haqda Bolqarıstanın energetika nazirinin müavini Jeço Stankov məlumat verib.

"Ümid edirəm ki, Yunanıstanla qaz kəmərinin tikintisinə dair yekun investisiya razılaşmasının imzalanması iyunun sonuna qədər baş tutacaq. Nazirlər Temenjuk Petkova və Panayiotis Lafazanis imzalanmanın yeni tarixini Sankt-Peterburqda keçiriləcək beynəlxalq iqtisadi forum zamanı müzakirə edəcəklər",- deyə Stankov bildirib. Nazir müavini imzalanmanın hansı səbəbdən təxirə salındığını açıqlamayıb. Yunanıstanla Bolqarıstanın qaz kəmərləri sistemini birləşdirən kəmərin tikintisi 2016-cı ilin martında başlamalı idi, kəmərin istismara verilməsi 2018-ci ilə nəzərdə tutulur.

Həmin kəmər Transadriatik Qaz Kəmərinin (TAP) Yunanıstandan keçən hissəsinə birləşməlidir və onunla Bolqarıstan Azərbaycandan hər il 1 milyard kubmetrə yaxın qaz almağı planlaşdırır. Müvafiq alqı-satqı müqaviləsi Bolqarıstan hökuməti ilə "Şahdəniz" konsorsiumu arasında imzalanıb. Komotini-Xaskovo-Stara Zaqora qaz kəmərinin uzunluğu 182 kilometr olacaq, kəmərin 150 kilometri Bolqarıstan ərazisindən keçəcək. Kəmərin tikintisinin 210 milyon avroya başa gələcəyi planlaşdırılır, o, ildə 3 milyard kubmetr qaz nəqli üçün nəzərdə tutulur. Rusiya Bolqarıstanın əsas qaz təchizatçısıdır. Lakin Bolqarıstan Rusiyanın "Cənub axını" qaz kəmərinin tikintisini Avropa İttifaqının tələbi əsasında dayandırdıqdan sonra Moskva ilə Sofiya arasında münasibətlər pisləşib. Rusiya "Cənub axını"nı ləğv edərək onun əvəzində Türkiyə-Yunanıstan sərhədinə çıxacaq "Türk axını" kəməri layihəsini irəli sürüb.

Bu kəmər daha sonra Yunanıstan və Balkan ölkələrindən keçərək Avropanın mərkəzinə istiqamət almalıdır. Kəmərin Bolqarıstandan keçməsi nəzərdə tutulmur. Bolqarıstan isə buna cavab olaraq Azərbaycan qazına çıxış əldə edərək Rusiyadan asılılığı azaltmağa çalışır. Lakin indi Bolqarıstanın Azərbaycan qazına çıxışını təmin edəcək kəmərin tikintisinə dair investisiya razılaşması müəmmalı şəkildə təxirə salınır. Böyük ehtimalla bu razılaşma Yunanıstanın təşəbbüsü ilə təxirə salınıb. Çünki Yunanıstan hökuməti TAP layihəsini ləngidir, Rusiya ilə sövdələşməyə girərək "Türk axını" layihəsinə qoşulmaq üçün danışıqlar aparır. ABŞ Afinadan tələb edir ki, bu danışıqları dayandırıb TAP-ı dəstəkləsin. Azərbaycan prezidenti İlham Əliyev isə bugünlərdə bəyan edib ki, "Şahdəniz" qazının Avropa bazarına çıxarılmasına qarşı bəzi əngəllər yaradılır və belə olarsa, Azərbaycan vəziyyətdən Türkiyə bazarında daha çox qaz satmaqla çıxmağa çalışacaq. (virtualaz.org)

**Ekspert Natiq Cəfərlinin sözlərinə görə, əsas problem Yunanıstanla bağlıdır:** "Bunun da əsas səbəbi odur ki, Yunanıstanın düşdüyü ağır durumda əlində olan az saylı ciddi arqumentlərdən biri qaz martşrutları məsələsidir. Rusiya da Yunanıstan üzərindən "Türk Axını"nın Avropaya çatdırılması barəsində çox ciddi təkliflərlə çıxış edib. Yunanıstan artıq bu barədə danışıqlara başlayıb. Hətta Yunanıstan ərazisindən keçən qaz kəmərini Rusiya özü maliyyələşdirərək 3 milyarda yaxın sərmayə qoyması haqda da ilkin razılaşma əldə olunub. Amma biz bilmirik ki, bunun əvəzində Rusiya Yunanıstandan nə istəyir. Çox güman ki, məhz TANAP layihəsi ilə bağlı gecikmələrin Yunanıstan üzündən baş tutması tələblərdən biri kimi Yunanıstan qarşısında qoyula bilər. Bunu dolayı yolla bu məsələ də təsdiq edir ki, bu yaxınlarda "Qazprom" prezidenti Miller çıxış edərkən dedi ki, TANAP layihəsi bəyanatlar verilərək hər il gecikdirilir. Hətta əvvəl 2019-cu ildə hazır olacağını deyirdilər. İndi 2020-2021-ci illərdə həyata keçiriləcəyi bildirilir. Amma heç inanmıram ki, 2021-ci ildə də TANAP layihəsi həyata keçsin. Bu, Millerin son həftələrdə verdiyi çox səs-küy gətirən bəyanatlardan biri idi. Bu da dolayısı ilə onu göstərir ki, Rusiya indiki şəraitdə Yunanıstanın ağır iqtisadi durumunu və Avropa Birliyi ölkələri ilə çəkişməsini nəzərə alaraq Yunanıstanda müəyyən siyasətini quraraq özünə tərəf çəkməyə və özünün siyasi və iqtisadi maraqlarının təmin olunmasında Yunanıstandan istifadə etməyi düşünür. Hətta beynəlxalq nüfuzlu mətbuatda Yunanıstanda son seçkilərdə qalib gəlmiş partiyanın Rusiya tərəfindən maliyyələşdirildiyi də önə sürülmüşdü. Yəni bütün bunları nəzərə alaraq çox güman ki, TANAP layihəsi ilə gələcəkdə bizə yaradılacaq manеələrin əsas qaynağı məhz Yunanıstan olacaq. Sadəcə, indi Azərbaycandan, yaxud da TANAP konsorsiumuna daxil olan şirkətlərdən və ölkələrdən Rusiyanın təklif etdiyindən daha çox nələrinsə təklif edilməsini gözləyəcək. Bu layihələri alver predmetinə çevirərək özünə daha çox xeyir verən təklifin ora gələcəyi üzərində bir oyun qura bilər. Çox güman ki, məsələ də bu yerdədir və Yunanıstanın bu addımlarına gələcəkdə biz daha tez-tez rast gələ bilərik. İndiki Yunanıstan öz tərəfindən bu addımı atdı. Rusiyanın təklifləri bəllidir. Çox güman ki, TANAP konsorsiumundan gələn təklifi gözləyəcək. Əgər Rusiyadan gələn təklifdən daha yaxşı bir təklif olarsa, Yunanıstan Rusiya ilə danışıqları yeniləyərək Rusiyadan daha çox güzəşt, daha çox kredit, daha çox investisiya cəlb etməyi düşünür. Yəni sırf geosiyasi problemlərdən doğan, obrazlı desək, auksiona çevrilib bu qaz məsələsi. Gələcəkdə bizi belə sürprizlər gözləyə bilər".

**Ekspertin sözlərinə görə, hətta Azərbaycanın dövlət başçısı da bu yaxınlarda TANAP layihəsinin reallaşmasında maneələrin olduğunu bildirmişdi:** "Çox güman ki, maneələrdən biri də məhz Yunanıstanla bağlı danışıqların dalana dirənməsi və irəliləyiş əldə olunmaması idi".

**Ekspert Pərviz Heydərov isə qeyd edib ki, TAP-ın reallaşmasının daha bir neçə il uzağa çəkiləcəyi istisna deyil:** "Son məlumat budur ki, TAP boru kəmərinin tikinti işlərinə 2016-cı il mayın 16-da başlanacaq və 2020-ci il dekabrın 31-də işlər yekunlaşacaq. Deməli, qaz da ən yaxşı halda 2021-ci ildən etibarən qəbul edilməyə başlanacaq.

Ancaq TAP-ın reallaşmasının daha bir neçə il niyə uzağa çəkiləcəyi istisna deyil. Təsadüfi deyil ki, Rusiyaya məxsus "Qazprom" şirkətinin rəhbəri Aleksey Miller də TAP-la bağlı adıçəkilən layihənin işə düşəcəyi vaxtın 2021-ci ilə qədər uzandığından, bu tarixin də dəyişdirilməyəcəyinə zəmanət olmadığını bildirib. Çünki müvafiq maneələrin yaradılmasında bilavasitə Rusiyanın barmağı var. İndi də Yunanıstandan vasitə kimi istifadə edilir. Necə ki, NABUCCO kəmərinin gündəlikdən çıxarılmasına səbəbkar Bolqarıstan oldu, TAP-ı da Yunanıstanın əli ilə "vurmaq" istəyirlər. Fərq yalnız ondadır ki, Bolqarıstandan "oyuncaq" kimi Avropa Birliyi istifadə etdisə, TAP-ı gündəlikdən çıxartmaq üçün bu gün Rusiya çalışır...

Ancaq nə cür "oyun oynanılsa" da, heç bir nəticəsi olmayacaq. TANAP kimi TAP da reallaşacaq. Yeri gəlmişkən, prezident İlham Əliyev də Bakıda keçirilən 22-ci "Caspian Oil & Gas 2015" sərgisinin açılışındakı çıxışında ümid etdiyini bildirdi ki, TAP-ın icrasında heç bir problem yaşanmayacaq. Ümumiyyətlə, prezident İlham Əliyevin Trans-Adriatik Boru Kəməri layihəsinin reallaşmasında hər hansı bir problem yaranarsa, o zaman Azərbaycanın öz qazını daha çox Türkiyəyə satacağını bəyan etməsi Avropaya, eyni zamanda da Rusiyaya "sərt sillə" oldu".

Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 128 (6156) 13 iyun 2015

# ATƏT diplomatlarından amerikalılara "çevriliş" ittihamı

## Sülhəddin Əkbər: "Regionun geopolitik taleyi həll olunur, bu qarşıdurmada episentr GUAM məkanıdır"

**ATƏT-in Bakıdakı Layihə Koordinatorluğunun bağlanması üçün Azərbaycan ATƏT-ə bir ay möhlət verib. Qərb mediası bunu ölkədəki insan hüquqları və media azadlığının tənqidinə cavab adlandırır. APA-nın məlumatına görə, Qərb diplomatlarının "EurActiv" saytına dedikləri isə tamamilə fərqli sözlər deyir.**



Bakıdakı və ATƏT-in Vyanadakı baş qərargahındakı diplomatlar "EurActiv"ə bildirib ki, ATƏT-in Bakıdakı Layihə Koordinatorluğunun bağlanması ilə əlaqədar olaraq təqsirləndiriləcək biri varsa o da ABŞ diplomatıdır. Onlar iddia edir ki, amerikalılar Azərbaycanda hakimiyyət dəyişikliyinə can atırlar.

Müxtəlif mülahizələr müəyyən məqamlarda uyğun gəlir. ATƏT-in Bakıdakı missiyası 2009-cu ildə açılıb, ATƏT-in sabiq səfiri Koray Tarqay mandatı dönəmində müxtəlif çətinliklərlə üzləşib. Məlumata görə, 2012-ci ilin iyulundan 2013-cü ilin iyuluna kimi Tarqay ABŞ təzyiqi altında ölkə haqqında bəzi tənqidi fikirlər bildirib.

2013-cü ilin yayında, ATƏT-in missiya üzvlərinin müxalifətin qeyri-qanuni nümayişinə qatılan zaman isə bu təzyiqlər pik həddə çatıb. ATƏT-in missiya üzvləri bu cür hadisələri müşahidə edə bilərlər, lakin kənardan. Bildirilir ki, ATƏT-in missiya üzvləri faktiki olaraq nümayişdə iştirak ediblər. Bununla bağlı mübahisə yaranıb, Azərbaycan rəhbərliyi missiyanın fəaliyyətinin dayandırılmasını istəyib.

Xatırlatmaq yerinə düşər ki, ATƏT-in missiyaları ölkələrin öz təşəbbüsü ilə açılır.

Ukrayna və Türkiyə missiyanı yeni mandat ilə fəaliyyətdə saxlamaq üçün müdaxilə ediblər. Yeni mandat bunu siyasi bəyannamə etməyə və bürونu "ATƏT-in Layihə Koordinatorluğu"na çevirməyə imkan vermir.

Yeni mandat 2013-cü ilin iyulunda qəbul edilib və yeni səfir Aleksis Şahtaxtinski 2014-cü ilin martında Bakıya gəlib. ATƏT-in Layihə Koordinatorluğunun hazırda fəaliyyət göstərən internet səhifəsinin yazdığına görə, onun əsas prioritetləri ATƏT-in öhdəliklərinin uğurla yerinə yetirilməsində Azərbaycana kömək etmək; terrorizmlə mübarizə, Azərbaycanda dini tolerantlığın daha da irəli aparılması, məişət zorakılığı və insan alverinə qarşı mübarizə sahəsində dövlət qurumları ilə vətəndaş cəmiyyətləri arasındakı əməkdaşlığın və yaxşı dövlətçilik layihələrinin inkişafı olub.

Məlumata görə, yeni səfir mandatına ciddi hörmət edib və siyasi bəyanatlar verməkdən, hakimiyyəti tənqid etməkdən imtina edib. Lakin ABŞ-ın ATƏT-dəki səfiri Daniel Bayer onun daha çox siyasi rol oynamasını, ABŞ-ın Gürcüstan və Ukraynada olduğu kimi Azərbaycanda da hakimiyyət dəyişikliyi strategiyasının davamçısı olmasını istəyib.

Diplomatik mənbələrin bildirdiyinə görə, ABŞ və Böyük Britaniyanın Vyanada Fransaya və ATƏT-in baş katibi Lamberto Zannierə qarşı təzyiq artıb. Nəticədə ATƏT səfiri ilə mayın 31-də bitən müqaviləsini yeniləməyib.

"EurActiv"ə bildirilib ki, Azərbaycan hökuməti bunu **"Əgər Şahtaxtinskinin varisi eyni qayda ilə işləsə, o da işdən azad ediləcək. Bu onun öz mandatını pozaraq işləməsinə təhrik edəcək. Bu qəbuledilməzdir"** deyə əsaslandırıb və Bakının qərarı missiyanın fəaliyyətinin dayandırılması olub.

Məlumata görə, bu hadisələrdən qabaq Azərbaycan ABŞ-ın missiya üzərinə olan təzyiqlərinin artması barədə ATƏT-in Vyanadakı baş qərargahına rəsmi məlumat verib.

**"Xüsusi xidmət fonu olanlar insan hüquqlarından hakimiyyətin dəyişdirilməsi üçün bəhanə kimi istifadə edərək xarici siyasəti alətləşdirmək üçün ATƏT-dən istifadə edir. Lakin bu Dağlıq Qarabağ münaqişəsi səbəbindən qonşu Ermənistanla müharibə şəraitində olan Azərbaycanda keçməz"**, - deyə diplomat bildirib.

Azərbaycan-Atlantika Əməkdaşlıq Assosiasiyasının və Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər hesab edir ki, Azərbaycanın da yerləşdiyi regionda geopolitik qarşıdurma kəskinləşib, baş verənlər də bununla bağlıdır: "Regionun geopolitik taleyi həll olunur. Bu qarşıdurmada episentr GUAM məkanıdır. GUAM məkanında yerləşən 4 dövlətdən üçü-Gürcüstan, Ukrayna, Moldova artıq öz seçimini edib. Onlar Avropa Birliyi ilə assosiativ saziş və azad ticarət zonasının yaradılması haqqında müqavilə imzalayıblar. Yalnız Azərbaycan nəinki öz strateji seçimini etməyib, tam tərsinə, Ukrayna böhranından sonra Rusiyaya doğru meyllənməyə başlayıb. Bu da istər-istəməz ABŞ-la, Qərblə münasibətlərin gərginləşməsinə gətirib çıxarır. Postsovet məkanında Avroatlantik inteqrasiyaya qoşulmaq istəməyən ölkələrə liderliyi Rusiya edir, Rusiya xüsusi xidmət orqanları mütəmadi olaraq bu ölkələrə informasiyalar ötürür, bəzən bu informasiyalar dezinformasiyalar xarakteri daşıyır və bu ölkələrin rəhbərliyində ABŞ-ın, Qərbin çevriliş planlarının olduğu fikrini yaradırlar, belə rəy yaradırlar ki, sizin ölkənizi də Ukraynanın gününə salmaq planı var və sair. Müəyyən səbəblər də var. Azərbaycan hakimiyyəti hələlik avroatlantik məkana inteqrasiyaya hazır deyil. Bundan da Rusiya istifadə edir. Qərbə gəldikdə isə təbii ki, Qərb Azərbaycanın Avropa Birliyinə, avroatlantik məkana inteqrasiyasını istəyir. Azərbaycanın Milli təhlükəsizlik konsepsiyasında da açıq şəkildə göstərilib ki, Azərbaycanın strateji hədəfi avroatlantik məkana inteqrasiyadır. Qərb də tələb edir ki, Azərbaycan Avropa Şurasının, ATƏT-in üzvüdürsə, Avropa Birliyi ilə "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində tərəfdaşlıq edirsə, NATO ilə tərəfdaşdırsa, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir. O öhdəliklərdən biri də demokratiya və insan haqlarıdır. Odur ki, indi Azərbaycandan strateji seçim etməsi tələb olunur. Bu strateji seçim də ölkədə demokratiya və insan haqları, azad, ədalətli seçkilərin keçirilməsi anlamına gəlir. Bunu da Azərbaycan hökuməti öz siyasi təhlükəsizliyinə təhdid kimi görür. Eyni zamanda Rusiyadan çəkinirlər, Rusiya Azərbaycan hakimiyyətini təhdid edir. Azərbaycanda Qərbin təhlükəsizlik və enerji sahəsində ciddi maraqları olduğu üçün savaş açıq yox, gizli gedir. Ona görə də Azərbaycanda ABŞ-ın çevriliş edəcəyini düşünmürəm".

S.Əkbər vurğuladı ki, ABŞ-ın guya Azərbaycanda çevriliş edəcəyi barədə informasiyalar Rusiyanın Azərbaycan hakimiyyətini yönləndirməsi istiqamətində ötürdüyü dezinformasiyadan ibarətdir. Bu, gizli savaşdır və getdikcə şiddətlənəcək.

S.Əkbər onu da dedi ki, ABŞ-la Bakının arasında gərginliyin müşahidə olunması Azərbaycanı qorumaq üçün Qərblə razılaşdırılmış oyundursa, bu, başqa məsələ, bunu başa düşmək olar. Amma oyun deyilsə, həqiqətən də bu, Azərbaycan hakimiyyətinin Rusiya ilə koordinəli hərəkətidirsə, çox təhlükəli tendensiyadır.

❑ **Etibar SEYİDAĞA**

# Bu günü də gördük...



**Hüseynbala SƏLİMOV**

**Vədə yetişdi. Nəhayət ki, bu gün də gəlib çatdı. Bir az səbirli olaq, darıxmayaq. Əsl təhlillər, analizlər hələ bundan sonra olacaq. Ona görə ki, lap bir mahnıdakı kimi, suallar da hələ bundan sonra meydana çıxacaq: "Kimlər gəldi, kimlər keçdi bu ölkədən, bu ölkədən?.."**

İndilik isə bir az təsvirlə məşğul olmaq olar. Bir şeyi deyim ki, ümumi sevinc bir tərəfə, nəhayət ki, müxalifətin, müstəqil medianın və QHT-lərin üzü danlaqdan qurtardı!.. Onlar əslində bir şey də eləmirdilər. Amma elə ki, Avropada kimsə bir söz deyirdi, bizim dürlü milli telekanalların təhlilçiləri bütün təqsiri onlarda görürdü, guya ki, bu bədbəxtlər oralara bədxah məlumatlar göndəriblər. Halbuki yazıqların bundan heç xəbəri olmurdu, ona görə ki, nəsə olmasa da, bu ölkədə problem hamıya çatır...

Bilmirəm, yaşdandır, yoxsa başqa səbəbdən? Axır vaxtlar məni hey xatirələr özünə çəkir. Azərbaycanın Avropa Şurasına üzv olmağı ərəfəsində də gərginlik yaşanırdı. Şuraya üzv olmaq üçün əsas müxalifət partiyalarının də rəyi lazım idi. Onlar düşünmədən, tərəddüd etmədən bu rəyi verdilər. Düzdür, problemlər çox idi, hakimiyyətin götürülən öhdəlikləri yerinə yetirəcəyi ilə bağlı əminlik yox idi. Amma səmimi olaraq etiraf edirik ki, heç kim bilmirdi ki, problemlər bu qədər uzun çəkəcək, Azərbaycanın hətta 2015-ci ildə siyasi məhbus, düzgün keçirilməmiş seçkilər və avtoritar idarəçilik kimi problemləri olacaq...

Qərəz, hamı razılıq verdi ki, ölkə Avropa Şurasının üzvü olsun. Həm də düşünürdülər ki, ölkənin Avropa Şurasına üzv olması bütün hallarda Şuraya üzv olmamasından daha yaxşıdır...

İndi bu rakursdan baxanda Avropa oyunlarına da münasibət belədir. Həm də idman tədbiri olduğundan kimsə qərəz nümayiş etdirmədi...

Halbuki bütün bu aylar ərzində cəmiyyətin müxalif və müstəqil kəsimi monoton olaraq ittiham olundu, qınandı ki, siz hakimiyyətin ölkədə yapdığı xarüqələri görmürsünüz!..

Amma hamı hər şeyi gördü. Bircə o qalmışdı ki, əhaliyə desinlər ki, bir aylığa ölkədən çıxıb gedin, oyunlar bitəndən sonra qayıdarsınız!..

Qərəz, indi ümid etmək olar ki, ən azı iyunun sonlarına qədər qulaqlarımız dinc olacaq...

Amma bəri başdan deyirəm ki, Avropa oyunları hələ uzun müddət siyasət və ittiham predmeti olacaq. Ona görə ki, bu il həm də parlament seçkiləri keçirilməlidir. Böyük ehtimalla müxalifət Avropa oyunlarına qarşı çox qərəzli münasibətinə görə qınanacaq, o biri tərəfdən də hakimiyyətin gördüyü "böyük işlər"in sırasına Avropa oyunları da əlavə olunacaq...

Sevindirici cəhət yalnız odur ki, insanların Avropanı bir az da hiss etmək, duymaq şansları artacaq. Baxmayaraq ki, ölkənin ATƏT-in, Avropa Şurasının üzvü olması və Avropa Birliyi tərəfindən Şərqi Avropa ölkəsi elan olunması bu hissiyatı o qədər də artırmamışdı...

İnsanlara "ikili standart"lardan, dünyada və qitədə guya ki, heç bir prinsipin olmamasından o qədər dəm vurublar ki, heç nəyə inam qalmayıb...

Amma doğrudanmı ölkədə və qitədə heç bir prinsip, heç bir qayda və meyar yoxdur? Bu yaxınlarda beynəlxalq siyasətlə bağlı bir əcnəbinin yazısını oxudum. Baxıb görürsən ki, əslində o deyilənlərin hamısı cəfəngiyatdan başqa bir şey deyil, dünyanın yazılı və o cümlədən də yazılmayan qanunları var ki, həmin qanunlara görə Rusiya ittiham olunur. Söhbət nədən gedir?

Birincisi, ikinci dünya müharibəsindən sonra dövlətlərin ərazi zəbt etməsi, öz ərazisini genişləndirməsi qətiyyən təqdir olunmur...

İkincisi, böyük dövlətlərin, xüsusən də nüvə silahı olan dövlətlərin malik olduğu güc onlar qarşısında məsuliyyət yaradır. Hətta bu dövlətləri xüsusi adla da çağırır və onlara "məsul dövlətlər" deyirlər...

Qərəz, dünyada prinsip də var, meyar da. O başqa bir məsələdir ki, heç də həmişə hamını həmin prinsipləri gözləməyə məcbur etmək olmur, onların pozulan vaxtları da olur...

Bəli, heç də demirik ki, bu prinsiplər, hətta beynəlxalq hüququn özünün qanunları iki üstə gəl iki kimi hamı tərəfindən qəbul olunur. Yox, sapınmalar var. Amma dünya iddia edildiyi kimi də "geosiyasi cəngəllik" deyil, sadəcə, "ikili standartlar"dan danışanların özləri bir çox hallarda, xüsusən də öz cəmiyyətlərinə münasibətdə standartlara əməl etmirlər...

Əməl etsəydilər böyük ehtimalla nə siyasi məhbus problemi olardı, nə saxta seçkilər, nə də ki, pozulmuş haqlar və yaxud məhdud demokratiya problemi...

# İyunun 16-na qədər siyasi məhbuslarla görüşlər təxirə salınıb

## Avropa Oyunları vaxtı siyasi məhkəmələr olacaqmı?


Nemət Kərimli

**Avropa Oyunlarının keçirildiyi müddətdə heç bir siyasinin məhkəmə prosesinin olmayacağı deyilir. Hətta barələrində hökm qərarı olan siyasi məhbusların da apelyasiya və Ali Məhkəməyə şikayətlərinə baxılmaya bilər.**

Siyasilərin vəkillərinin bu barədə fikirlərini aldıq.

İnsan Haqları Klubunun sədri Rəsul Cəfərovun vəkili Fariz Namazlı bildirdi ki, iyunun 12-də keçiriləcək Apelyasiya Məhkəməsi bu səbəbdən təxirə salınıb: "Ayın axırına qədər məhkəmələr gözlənilmir. Çünki iyunun 12-də Rəsul bəyin məhkəməsi olmalı idi, amma olmadı. Rəsul Cəfərov Bakı Ağır Cinayətlər Məhkəməsinə ərizə ilə müraciət etmişdi. Bildirmişdi ki, protokollarla tanış olub, qeydlər etmək istəyirəm. Amma qeydlər etməmişdi. Çünki ciddi dəyişikliyə ehtiyac yox idi. Bununla belə, məhkəmə geri qaytardı. Bu onu göstərir ki, Avropa Oyunları zamanı siyasilərin məhkəməsi olsa, hazırda ölkəmizdə olan xarici jurnalistlərin diqqətində ola bilər. Təbii ki, hakimiyyət bunu istəmir. Konkret olaraq, Rəsul Cəfərovun da işinin geri qaytarılmasına ehtiyac yox idi. Məhkəmə əsassız olaraq, geri qaytardı. Bundan şikayət etmək mexanizmi də yoxdur. Biz sadəcə gözləməyə məcburuq".

**Fariz Namazlı hüquqlarını müdafiə etdiyi digər vicdan məhbusu Xədicə İsmayılın da hər hansı bir məhkəməsinin olmayacağını qeyd etdi:** "Avqustun 22-nə qədər həbs müddəti artırılıb. İstintaq hələ də gedir. İstintaqla bağlı yenilik yoxdur".

**Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyevin vəkili Fəxrəddin Mehdiyev dedi ki, siyasilərin məhkəməsi iyunun 29-dan sonra olacaq:** "Bu məsələlər hamısı təxirə düşdü. Bütün işlər baxılmamış qalıb. Bir dənə AXCP üzvü Asif Yusiflinin ayın 18-nə məhkəməsi nəzərdə tutulub. Vəkili mənəm. Ağır Cinayətlərdə hazırlıq iclası olacaq. Dəyişməsələr, proses başlayacaq. Mənimlə əlaqə saxlayıb xəbər verdilər. Hesab edirəm ki, hazırlıq iclası olsa belə, növbəti məhkəmə Avropa Oyunlarından sonra olacaq".

**Kərimli qardaşlarının vəkili Nemət Kərimli Müsavat başqanının həbsdəki müavini Fərəc Kərimlinin məhkəmə prosesinin başlaya biləcəyini söylədi:** "Məhkəmə proseslərinin siyasi işlərə görə təxirə salınması qaydası qanunvericilikdə nəzərdə tutulmayıb. Vəkili olduğum işlərdən yalnız Fərəcin məhkəməsi başlaya bilər. Azərbaycanda yazılmamış qanunlar var. Həmin qanunlara uyğun olaraq, hakimiyyətin böyük önəm verdiyi siyasi oyuna görə təxirə salınmalar ola bilər. Bu daha real görünür, nəinki olmağından".

**"Ayna Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun vəkili Elmar Süleymanov məhkəmələrin təxirə salınmasının Avropa Oyunları ilə əlaqədar olmadığını qeyd etdi:** "Sözün açığı, yarışma ilə əlaqədar olmadığını düşünürəm. Çünki qanunvericilikdə var ki, müddət bitəndə digər amillərin təsiri olmur. Məhkəmə baxıb qiymətini verir. Necə baxır, o başqa məsələdir. Bildiyimiz kimi, Rauf bəyin həbs müddəti dörd ay uzadıldı. Hazırda istintaq gedir. Uzun müddət idi ki, istintaq getmirdi. Hansısa bir yarışma keçirilmirdi ki. Yəni aidiyyəti yoxdur".

**Vəkil Rauf Mirqədirovun səhhətindən də danışdı:** "Hazırda Rauf bəy dərmanlar qəbul edir. Müayinə olunur. Normal müayinə gedir. MTN-də bu işlər yüksək səviyyədədir".

**Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunusun vəkili Elçin Qəmbərov gələn həftənin ikinci gününə qədər siyasi məhbuslarla görüşlərə icazə verilmədiyini bildirdi:** "Bütün məhbuslarda bu problemlər var. Ayın 15-də iş günü deyil. Ondan sonra görüşlər veriləcək. Özləri bu qərarı elan etdilər. İnanmıram ki, yarışma ərəfəsində hansısa siyasi məhkəmə olsun. Xarici mətbuatın Bakıda olduğunu nəzərə alsaq, inandırıcı görünmür. Çünki diqqət çəkə bilər. Bu dəqiqə əsas intizarla gözlədiyimiz amil hüquq müdafiəçilərinin elan etdikləri əfv olacağı xəbəridir. Oyunlar vaxtı bu addım atılsa, hesab edirəm ki, hakimiyyət və xalq üçün müsbət nəticələri olardı".

❑ **Cavanşir ABBASLI**

# Redaksiyalar mükafatlandırılacaq jurnalistlərin siyahısını hazırlayır

## Bəzilərində siyahı hazırdır, bəziləri isə düşünür

**İyunun 6-da Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov baş redaktorlarla keçirilən görüşdə mətbuatın inkişafında rolu olan jurnalistlərin mükafatlandırılacağını deyib. O, redaksiyalarda hazırlanacaq siyahının prezidentə təqdim ediləcəyini də bildirib.**



"Yeni Müsavat" qəzetində hələ ki bu məsələ ilə bağlı yekun qərar, siyahı yoxdur. İlkin müzakirələr baş tutsa da, ad alacaq əməkdaşların siyahısı müəyyənləşməyib. Bu barədə qəzet rəhbərliyindən verilən məlumatda bildirilir.

"Azadlıq" qəzetinin redaktoru Sücəddin Şərifov isə bildirdi ki, hələlik bu mövzuda redaksiya daxilində heç bir müzakirə olmayıb. Müsahibimizin sözlərinə görə, bu səbəbdən də konkret qərar yoxdur. "Siyahı göndərməmə, bu adlardan imtina etmə ehtimalınız varmı" sualına cavabda redaktor dedi ki, hər şey redaksiya heyətinin verəcəyi qərardan asılıdır: "Müzakirə apamamışıq. Ona görə də konkret heç nə deyə bilmərik".

"525-ci qəzetin" baş redaktoru Rəşad Məcid isə siyahının artıq müəyyənləşdiyini bildirib. Amma o, bu siyahını mətbuata açıqlamayacaqlarını, rəsmi qurumlara göndərəcəklərini deyib.

Mətbuat Şurasının sədri Əflatun Amaşov isə mətbuatın 140 illik yubileyi münasibətilə mükafatlandırılmaya təqdim olunmaq üçün quruma 100-ə yaxın müraciətin daxil olduğunu deyir. Amma redaksiyalar və jurnalist təşkilatları əməkdaşlarının mükafatlandırılması ilə bağlı Prezident Administrasiyasına özləri də müraciət edə bilərlər. MŞ sədrinin sözlərinə görə, mükafatla bağlı müraciətlərin qəbul olunması iyul ayının ortalarına qədər davam edəcək. İyulun 20-nə qədər qaliblər müəyyənləşəcək. Milli Mətbuat Günündə -iyulun 22-də mükafatlandırma olacaq".

Xatırladaq ki, iyunun 2-də Prezident İlham Əliyev Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. Sərəncamla Prezident Administrasiyasına Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Mətbuat Şurası ilə birlikdə Bakı şəhərində və respublikanın bölgələrində yubiley tədbirlərinin keçirilməsini təmin etmək, jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında milli mətbuatın inkişafında xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri bir ay müddətində prezidentə təqdim etmək tapşırılıb.

❑ **Sevinc TELMANQIZI**

# Səfir Arif Məmmədova münasibət birmənalı deyil

**Natiq Miri:** "Artıq neçənci dəfədir ki, arx gəlməmiş çırmanan yeganə qüvvə Milli Şuradır"

**Azərbaycanın Avropa İttifaqı yanında nümayəndəliyinin keçmiş rəhbəri, Azərbaycanın Avropa Şurası yanında sabiq daimi nümayəndəsi, 2013-cü ilin iyun ayından etibarən Brüsseldə yerləşən İslam Əməkdaşlıq Təşkilatının Avropa Birliyi yanında nümayəndəliyinin rəhbəri və bu təşkilatın ilk səfiri olan Arif Məmmədov son bir neçə həftədir Azərbaycan hakimiyyətinin siyasətinə sərt müxalif mövqe nümayiş etdirir.**


Arif Məmmədov

Azərbaycan hakimiyyətinin təmsilçiləri isə artıq onu özlərinin və Azərbaycanın düşməni elan ediblər. Diqqəti cəlb edən maraqlı bir məqam isə ondan ibarətdir ki, Arif Məmmədov nə qədər kəskin açıqlamalar versə də, hakimiyyətdən də nə qədər sərt cavab alsa da müxalifət düşərgəsində ona bir laqeydlik, sanki bir inamsızlıq var. Milli Şuradan və bu qurumun əsas qüvvəsi olan AXCP-dən başqa hansısa müxalifət təşkilatının üsyançı diplomatı ciddi şəkildə müdafiə etdiyi müşahidə olunmur.

**Politoloq Natiq Miri hesab edir ki, Arif Məmmədovun Milli Şuradan başqa digər siyasi qüvvələr tərəfindən ciddi qəbul edilməməsinin, ona inamsızlığın səbəbləri var. Arif Məmmədov xarici qüvvə tərəfindən idarə olunur. Bu, həmin qüvvələrin öz maraqlarının diktə etmək üçün bilavasitə hakimiyyətə təzyiq mexanizmidir:** "Arif Məmmədov bir projenin tərkib hissəsidir. Milli Şuranın, AXCP-nin onu şiddətli müdafiə etməsi də həmin planın tərkib hissəsidir. Diqqət edirsinizsə, nə Müsavat Partiyası, nə də digər siyasi partiyalar Arif Məmmədovu müdafiə mövqeyində deyillər. Yalnız Milli Şura və AXCP önə çıxıb. Kimlərsə yeni bir Rüstəm İbrahimbəyovu cəmiyyətə qəbul etdirmək istəyir. Ancaq belə görünür ki, cəmiyyət və siyasi qüvvələr bunu həzm etmir".

**Ekspertin sözlərinə görə, Milli Şura belə fon yaratmaq istəyir ki, Arif Məmmədovun mövqeyi bütün ictimai-siyasi qüvvələr içərisində dəstək qazanmağa başlayıb. Halbuki 2013-cü ildəki Rüstəm İbrahimbəyov projesinin fiaskosundan sonra cəmiyyət artıq buna bənzər projelərə inanmır, bu cür projelərin səmimi olduğuna inam cəmiyyətdə aşağıdır:** "Milli Şura neçə vaxtdır çox cəhd edir, lakin o inamı bərpa edə bilmir. İnsanlar, siyasi qüvvələr həm də görürlər ki, Arif Məmmədov gələcəkdə ciddi siyasi qüvvəyə, ciddi bir prosesə liderlik edə biləcək imkanları daşımır. Ona qarşı bir laqeydlik, inamsızlıq həm də bununla bağlıdır. Sadəcə, Milli Şura növbəti dəfə müəyyən sifarişlərlə yeni "Rüstəm İbrahimbəyov"u cəmiyyətə sırımağa çalışır. Artıq neçənci dəfədir ki, arx gəlməmiş çırmanan yeganə qüvvə Milli Şuradır".

❑ **Etibar SEYİDAĞA**

# Müsavat başqanı Brüsselə gedir

## Elman Fəttah: "Aksiyalar məsələsi müzakirə olunacaq"

**İyunun 12-dən etibarən Azərbaycanda Avropa Oyunlarına start verildi. Məlum olduğu kimi, yarışma başlamamışdan öncə ölkə daxilindən və xaricdən bir sıra təpkilər oldu. Əsas tələblərdən biri də siyasi məhbusların azadlığa buraxılması idi.**


Elman Fəttah

İqtidardan Avropa Oyunları başlayana qədər siyasi məhbusların azad olunması tələb olundu. Amma göründüyü kimi, hakimiyyət nüfuzlu yarışmaya tələblərin heç birini yerinə yetirmədən getdi. Belə bir şəraitdə oyunların keçirildiyi müddətdə bir sıra etiraz aksiyalarının olacağı ehtimalları daha yüksək görünür.

**Başqan müavini Elman Fəttah** "Yeni Müsavat"a açıqlamasında yarışmanın keçirildiyi müddətdə etiraz aksiyalarının müxtəlif növlərindən istifadə edəcəklərini bildirdi: "Partiyamız bu yarışlarla bağlı açıq mövqeyini ortaya qoyub. Məclis və Divan Avropa Oyunlarına qədər siyasi məhbuslar azad olunmayacağı təqdirdə, dövlət başçılarını iştirakdan imtinaya çağırmışdı. Avropa ölkələrindən demək olar ki, bu prosesdə iştirak edən yoxdur. Söz sahibi olmayan ölkələrin başçıları yarışmaya gəldilər. İştirakdan açıq şəkildə imtina edən ölkələr onu göstərdilər ki, Müsavat Partiyası doğru qərar verib, doğru mövqedədir. Bizim mövqeyimiz iki səbəbdən doğub. Birincisi, siyasi məhbusların azad olunmamasıdır. İkincisi isə oyunlar adı altında külli miqdarda pulların mənimsənilməsidir. Əslində bunlar korrupsiya layihəsidir. Bu vəziyyət qaldıqca, fəaliyyətimiz davam edəcək. Aksiyalar məsələsi müzakirə olunacaq. Bu, etiraz aksiyaları səviyyəsində ola bilər. Qapalı tədbir, konfrans, brifinqlər şəklində də mümkündür. Partiyada növləri müzakirə olunacaq. Müxtəlif formada olacaq. İyunun 17-də Müsavat başqanı Arif Hacılı və başqan müavini Səxavət Soltanlı Avropa Birliyinin dəvəti ilə Brüsseldə səfərdə olacaqlar. Əsas müzakirə mövzusu Azərbaycandakı siyasi məhbuslar, azadlıqların məhdudlaşdırılması olacaq. Müsavat Partiyası bu məsələni daim gündəmində saxlayacaq. Ölkədaxili və xarici siyasətimiz davam etdirəcəyik".

Yarışma müddətində hər hansı bir aksiya ilə bağlı müraciət olarsa, BŞİH-in verəcəyi qərar maraq doğurur. Bununla bağlı qurumun mövqeyini aldıq. BŞİH-in ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Zaur Ramazanovun sualımıza cavabı qısa oldu: "Bu suala cavabım yoxdur".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 128 (6156) 13 iyun 2015






# Türkiyə hələ də hökumətsizdir

## Koalisiya danışıqlarına eks-prezident Abdulla Gül də qoşulur; CHP qərarını iyunun 15-də açıqlayacaq - əsas tələb Kılıçdaroğlunun baş nazirliyidir; MHP ilk dəfə AKP ilə anlaşmanın mümkünlüyü mesajını verdi...

**Türkiyədə 7 iyun seçkilərindən sonra parlamentə düşən partiyalar koalision hökumət modelləri ilə bağlı müzakirələri davam etdirir. Bəllidir ki, 13 ildir Türkiyənin ana müxalifəti olan Cümhuriyyət Xalq Partiyası (CHP) yenə seçkilərdə ikinci yer qazanıb. Partiyadan verilən ilk açıqlamalarda AKP ilə anlaşmanın mümkünsüzlüyü bildirilirsə də, seçkidən 5 gün sonra "liderimiz baş nazir olmasa, koalisiyalarda yer almayacağıq" fikirləri eşidilməyə başlayıb.**

Belə ki, CHP sədrinin müavini **Vəli Ağbaba** partiya sədri Kemal Kılıçdaroğlunun indiki durumda baş nazirliyə ən real namizəd olduğunu deyib. Ağbaba fikirlərini twitter üzərindən yayıb: "İllərdir AKP-nin zülmünə səssiz qalanlar, illərdir AKP-dən bəhrələnənlər, illərdir AKP diktaturasını alqışlayanlar ölkənin ən təmiz, ən oturuşmuş, möhkəm ideyalar üzərində qurulan partiyasını çürümüş iqtidarın xəyallarına alət etmək niyyətindədirlər. CHP ölkənin içərisində olduğu durumun, eləcə də öz məsuliyyətlərinin fərqindədir. Şübhəsiz, vətəndaşımız çarəsiz, iqtisadiyyatımız başarısız, ölkəmiz hökumətsiz qalmayacaq. Ancaq biz liderimizin baş nazir olmadığı heç bir çözüm planında yer almayacağıq".

***

**İyunun 12-də PKK-nın siyasi qanadı kimi tanınan Xalqların Demokratik Partiyasından (HDP) deputat seçilən Sırrı Süreyya Önder, Pervin Buldan və İdris Baluken TBMM-də mətbuat konfransı keçirib. Qəzetçilərin suallarına cavab verən S.S.Öndər rəqib partiyaların təmsilçilərini təhdid edib:** "Sevinsinlər ki, HDP 10 faizlik həddi aşdı. Aşmasaydı, müxalifət partiyalarının təmsilçiləri otaqlarından çıxa bilməyəcəkdilər. Çünki yenidən avtoritar AKP-nin əsirinə çevriləcəkdilər".

**Koalisiya formatından danışan Öndər sürəcin azadlıq, bərabərlik, ədalət və barış prinsipləri içərisində baş verəcəyinə inandığını deyib:** "Bu prinsiplərdən uzaqlaşmaq ölkədə yenidən savaş və xaos yaranacağı anlamına gəlir. HDP haqqında kimin nə söz deməsindən asılı olmayaraq bu partiya artıq Türkiyədə təhlükəsizliyin təminatıdır. Biz Türkiyənin üfüqlərini aşdıq. Biz insanların artıq uzun müddətdir yadırğadığı rahat nəfəs almağı onlara qaytardıq. Rahatlamış kəsimin içərisində AKP-lilər də var".

**Öndər PKK lideri Abdulla Öcalanın həbsdən azad edilməsi ilə bağlı 2 aydır dayandırılan prosesin bərpasının vacibliyindən də danışıb. O, beynəlmiləl koalisiyanı bu məsələdə açar olaraq göstərib:** "Türkiyədə beynəlmiləl koalision qurulmalıdır. Barış üçün hər kəsin bir araya gəlməsi həyati önəm daşıyır".

Bu arada hökumət qurulması ilə bağlı danışıqlara keçmiş prezident Abdulla Gülün də qoşulduğu haqda xəbərlər yayılmağa başlayıb. Eks-prezident prezident Ərdoğan və baş nazir Ahmet Davutoğlu ilə telefon danışığında növbədənkənar seçkinin böyük bir yanlışlıq olduğunu, 3 partiyadan birinin AKP ilə ortaq hökumət qurmasının ölkə üçün yararlı ola biləcəyini deyib. Gül bildirib ki, seçkinin nəticələri xalqın ölkədə koalision hökumət qurulmasını istədiyini göstərib. Vətəndaşın iradəsini görməzliyə vurub yenidən seçki keçirmək böyük yanlışlıq olar. Onun fikrincə, yenidən seçki keçirilsə, sonuclar AKP üçün daha pis ola bilər.

**MHP lideri Devlet Bahçelinin koalisyon hökumətlə bağlı açıqlamaları da ölkə qəzetlərinin manşetindədir. Milliyyətçilərin lideri son açıqlamalarında deyib ki, AKP seçkinin nəticələrini düzgün qiymətləndirməlidir:** "Biz şərtlərimizi açıqladıq. Konstitusiya dəyişikliklərindən ölkənin unitar modelinin dəyişdirilməsi ilə bağlı müddəalar çıxarılmalı, çözüm süreci, Abdulla Öcalanın həbsdən azad edilməsi prosesi dayandırılmalı, korrupsiya iddiaları araşdırılmalıdır. Əgər koalision müzakirələrindən nəticə alınmazsa, ölkənin xaos və böhrana düşməsinə imkan vermədən təkrar seçkiyə gedərik".

**"Milliyet" qəzetinə müsahibə verən Devlet Bahçelinin "öncə ölkəm və millətim, sonra partiya" sözləri diqqət çəkib. Bahçeli deyib ki, digər partiyalar anlaşarlarsa, MHP ana müxalifət funksiyasını üzərinə götürməyə hazırdır:** "Əgər bizim şərtlərimiz qəbul edilsə, biz koalisiyada yer ala bilərik".

CHP isə iyunun 15-də koalisiya məsələsini daxili müzakirəyə çıxaracaq. Partiya rəhbərliyi hökuməti quracaq şəxsə təqdim ediləcək şərtləri müəyyən etməlidir. Bahçeli deyib ki, CHP-nin də şərtlərini açıqlaması mənzərini bir qədər də aydınlaşdıracaq.

Əslində Türkiyədə AKP-CHP ortaqlığı ən çətin anlaşma kimi dəyərləndirilir. AKP-nin illərdir CHP-nin müqəddəs saydığı ideyalara, özəlliklə Türkiyənin dövlət quruluşuna, ölkənin qurucusu Mustafa Kamal Atatürkə münasibəti AKP ilə ortaqlığın mümkünsüzlüyünü deməyə ciddi əsas verir. Bu iki partiyanın anlaşmasının mümkünsüzlüyü ilə bağlı daha bir ciddi səbəb dinə baxışlardakı kəskin fərqlərdir. Dindar AKP-lilərlə dini dövlətdən yetərincə uzaq tutmağı hədəfləyən CHP-lilərin anlaşacağı gözlənilən deyil. Buna baxmayaraq, ən çox səs yığan iki partiya kimi AKP-CHP ortaqlığı da müzakirə edilən formatlardandır.

***

Qəzetlər yazır ki, CHP koalisiyaya razılaşmaq şərtlərini təxminən müəyyən edib. Şərtlərdən biri növbəli baş nazirlikdir. CHP ilk 2 ildə hökumətə Kılıçdaroğlunun rəhbərlik etməsini istəyəcək. Bundan başqa, CHP TBMM sədrinin də CHP-li olmasını arzulayır. İlk iki şərt qəbul edilsə, CHP nazirliklərin 2 partiya arasında bölünməsini irəli sürəcək, ədliyyə, daxili işlər, təhsil nazirliklərinin özündə olmasını istəyəcək. Əsas məqamlardan biri də 17-25 dekabr 2013-cü ildə baş verən "Böyük Rüşvət" olayının parlamentdə araşdırılmasıdır. CHP bunsuz Türkiyənin gələcəyə baxmasının mümkün olmadığını düşünür.

Əgər MHP AKP-CHP koalisiyasına qoşulmaq istəsə, CHP baş nazir müavinliyi postunu, eləcə də bir neçə nazirliyi milliyyətçilərə verməyə razıdır. CHP daha geniş koalisiya və daha uzunömürlü hökuməti formalaşdırmaq naminə TBMM sədrliyini də MHP-yə güzəştə getməyə hazırdır.

HDP həmsədri Selaheddin Demirtaş da son iki gündə koalision hökumətlə bağlı ümumi sözlər səsləndirməklə yetərlənir. Böyük ehtimalla, HDP koalisiyalarda təmsil olunmaqdansa müxalifətdə yer almağa üstünlük verəcək. Partiyanın daha neytral mövqedən fikirlər səsləndirməsi, hər hansı şərtlər irəli sürməməsi belə bir təəssürat yaradır. S.Demirtaşın ötən gün verdiyi ən səs-küylü açıqlama isə seçkidən bir neçə gün öncə Diyarbəkirdəki mitinqdə 3 nəfərin ölümü ilə başa çatan partlayış haqqında olub: "Bu dəqiqə bir çox "Hizbullah" döyüşçüsü Diyarbəkirdədir. Onların çox güclü silahlanması ilə bağlı təkzibedilməz faktlar var. Onlara hücum olacaqsa, atəş açmaq haqqında əmr aldıqlarını da bilirik. İŞİD-ə bağlı, İŞİD-ə ciddi dəstək verən güclər Türkiyədə sabitliyi pozmaqla bağlı planlar qurur. Türkiyədə yüzlərlə nöqtədə eyni zamanda baş tutacaq mitinqlərin ssenarisi cızılır. Məqsəd ölkədə böyük bir xaos yaratmaqdır. Bu durumu Türkiyədə vətəndaş savaşına çevirmək istəyənlərin kimliyi bizə bəllidir. Diyarbəkir mitinqi ilə bağlı rəsmi qurumlara verdiyim heç bir sorğuya cavab almamışam. Xalq adına bu durumdan çox narahatam".

❑ **Aygün MURADXANLI**

## "Onlara öldürüləcək adamların siyahısı da verilmişdi"

**Türkiyənin Xalqların Demokratik Partiyasının (HDP) həmsədri Səlahəddin Dəmirtaş ölkənin Diyarbəkir vilayətində hazırda çoxlu sayda "Hizbullah" terror təşkilatının silahlanmış üzvünün olduğunu deyib.**



Virtualaz.org saytı Türkiyə mətbuatına istinadən xəbər verir ki, partiyasının Diyarbəkirdəki mitinqi zamanı baş vermiş partlayışdan danışan S.Dəmirtaş həmin silahlı qruplaşmalara qarşı hər hansı hücum təhlükəsi yaranarsa, onlara kimləri vuracaqlarının da tapşırıldığını deyib.

"İŞİD terror təşkilatına bağlı olan və onu dəstəkləyən qüvvələr var. Türkiyənin yüzlərlə yerində hadisə törədə biləcəklərindən narahatam. Əgər mitinqimizdə partlayış törədənlər tutulmasaydı, ölkədə vətəndaş müharibəsi görüntüsü yaradılacaq və Türkiyəni Suriyaya çevirmə prosesi başlayacaqdı. Buna baxmayaraq, yenə də mitinqdəki hadisənin arxasında duran qüvvələr aşkarlanmalıdır, əks təqdirdə, hadisələr tam həllini tapılmış sayılmır. Bu hadisənin izi itirilsə belə, təhlükə Türkiyənin hər bir yerində hamımızı hər zaman gözləyəcək" - deyə HDP lideri bildirib.

**S.Dəmirtaş iddia edib ki, dövlətin içindəki qüvvələrdən dəstək verilməsə, heç kim Suriyadan gəlib mitinqdə partlayış törədə bilməz:** "Hökumətə bağlı qüvvələr içərisində həmin şəxsə dəstək verənlər aşkarlanmalıdır. Hamı əmin ola bilər ki, biz bizə səs verən və verməyən, bizlə həmfikir olan və olmayan hər kəslə sülh və qardaşlıq şəraitində yaşamağın tərəfdarıyıq. Bizə səs verməyənləri əzmək, onları heçə saymaq fikrimiz yoxdur".

YENİ MÜSAVAT
N 128 (6156) 13 iyun 2015

**"AzərTAc" dövlət agentliyinin yaydığı məlumata görə, 2015-ci ilin birinci rübündə xaricdən Gürcüstan iqtisadiyyatına 444 milyon ABŞ dolları həcmində investisiya qoyulub ki, bunun da 34 faizi Azərbaycanın payına düşür. Cari ilin ilk rübünün göstəricilərinə görə, Gürcüstana yatırım edən ölkələr arasında Azərbaycan birinci yerdədir.**

# Ölkədən kapital axını sürətlənir

Daha əvvəl Türkiyənin Palatalar və Birjalar Birliyinin yaydığı məlumatda bildirilirdi ki, acri yanvar-aprel aylarında qardaş ölkədə Azərbaycan kapitallı 60 şirkət, o cümlədən 16 səhmdar cəmiyyət yaradılıb. Səhmdar cəmiyyətlərin kapitalında Azərbaycan investorlarının iştirakı 76,5 faizdir *(4 milyon 391,5 min lirə)*. İnvestorlarımız əsasən ticarət, ictimai iaşə, turizm, nəqliyyat və s. sahələrə sərmayə yatırır. Son aylar xaricə kapital axınının artması ölkə iqtisadiyyatının durumu ilə bağlı ciddi suallar yaradır. Ekspertlərin fikrincə, Türkiyə, Gürcüstan, ümumiyyətlə ölkədən kənarda investisiyaların həcminin artması Azərbaycanda normal biznes mühitinin olmaması ilə bağlıdır. Son iqtisadi proseslərdən sonra yerli sahibkarlar Azərbaycanda iri yatırımlar etməyi riskli sayırlar.

**"Yeni Müsavat"a açıqlamasında bu ehtimalları təsdiqləyən iqtisadçı ekspert Natiq Cəfərli də bildirdi ki, bu prosesin indidən sürətlənməsi Azərbaycan iqtisadiyyatının gələcək tendensiyasından xəbər verir:** "Xaricə kapital axınının sürətlənməsinin səbəblərindən biri odur ki, Azərbaycanda mülkiyyət toxunulmazlığı və məhkəmələrin ədalətliliyi ilə bağlı problemlər var. Son dövrlər bu kredit borcları ilə bağlı iş adamlarının həbsləri, bu prosesə aidiyyəti olmayan, lakin kənardan izləyib özü üçün dərs çıxaran iri və orta sahibkarların bir hissəni öz biznesini ölkədən çıxarmağa vadar etdi. Mülkiyyət toxunulmazlığı hüququnun qorunmaması, hökumətin iqtisadi məsələlərə müdaxiləsi, polis və vergi müfəttişləri vasitəsilə biznesə nəzarəti gücləndirməsi səbəbindən insanlarda qorxu hissi yarandı ki, bir gün onların da qapısını döyən olacaq. Bundan başqa ilin əvvəlindən, xüsusən də devalvasiyadan sonra vergi orqanlarının biznesə total hücumu başladı. Vergi orqanları kiçik və orta biznesə ciddi basqı yaratdı. Qiymət artımı məsələsinə İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən nəzarət gücləndirildi, vergilərin həcmi artırıldı. Bütün bunların nəticəsi olaraq ölkədən investisiya axını sürətləndi və kapital yatırmaq üçün ən yaxın və etibarlı yerlər Gürcüstan və Türkiyədir. Bu ölkələrdə mülkiyyət toxunulmazlığı problemi yoxdur, vergi və polis orqanlarının biznesə müdaxiləsi yox səviyyəsindədir. Məhkəmələr vasitəsilə bu ölkədə insanlar öz hüquqlarını qoruya bilir. Ona görə də son dövrlər dövlət vəsaiti deyil, özəl bizneslə məşğul olan insanların xaricə investisiya yatırmaq cəhdləri artır. Bu gələcəkdə daha da sürətlənə bilər ki, bu da ölkədən kapital axınının güclənməsinə səbəb olar".



**Vüqar Bayramov:** "İnvestisiyaların xaricə yönəlməsi daxildə investisiya tələbatının ödənilməsində çətinliklərin yaranmasına gətirib çıxara bilər"



**Natiq Cəfərli:** "Kredit borcları ilə bağlı iş adamlarının həbsi, bu prosesə aidiyyəti olmayan, lakin kənardan izləyib özü üçün nəticə çıxaran iri və orta sahibkarları öz biznesini ölkədən çıxarmağa vadar etdi"

**Ekspertin fikrincə, son zamanlar kütləvi şəkildə sahibkarlıq obyektlərinin, iş yerlərinin bağlanması özünü bu şəkildə büruzə verir:** "Bu da gələcəkdə ölkənin iqtisadi vəziyyətinə ciddi təsir göstərəcək. Hələ ki hökumət bununla bağlı hansısa proqramlar həyata keçirməyi, islahatlar aparmağı düşünmür. İqtisadi modeli bizə bənzər olan qonşu ölkələrdə kiçik və orta sahibkarlara verilən üstünlükləri, dövlətin onlara verdiyi güzəştləri Azərbaycanda biz görmürük. Bunun nəticəsi olaraq kiçik və orta sahibkarlıq obyektləri sürətlə bağlanır. Şəhərdə də biz vizual olaraq bunun şahidi oluruq. Bu da sahibkarlara əsas verir ki, bizneslərini qonşu ölkələrə keçirsinlər. Mən bu tendensiyanın davamlı olacağını gözləyirəm".

**Natiq Cəfərlinin sözlərinin əksinə olaraq iqtisadçı ekspert Vüqar Bayramov xaricə investisiyanın əsasən dövlət şirkətləri tərəfindən yatırıldığını və bunun dövlət büdcəsinə daxilolmaların həcmini artırmaq məqsədi güddüyünü bildirdi:** "2012-ci ildən başlayaraq, azərbaycanlıların xaricə investisiya qoyuluşlarında artımlar var. Azərbaycanlı iş adamları təkcə Türkiyə və Gürcüstana deyil, eyni zamanda Mərkəzi və Şərqi Avropa ölkələrinə, xüsusən də Çexiya, Xorvatiya və Sloveniyaya kifayət qədər böyük həcmli investisiya yönəldirlər. Onu da nəzərə almaq lazımdır ki, qonşu ölkələrə yönəldilən investisiyaların böyük bir qismi Dövlət Neft Şirkətinin və digər dövlət şirkətlərinin payına düşür. Xüsusən də Dövlət Neft Şirkətinin həm Gürcüstana, həm də Türkiyəyə qoyduğu investisiyaların həcmini artırıb. Bu da təbii ki, xaricdə Azərbaycan investisiyasının həcminin artmasına gətirib çıxarıb. İnvestisiyaların xaricə yönəlməsinin həm müsbət, həm də mənfi tərəfləri var. Dövlət xaricə investisiyaların yatırılmasında maraqlıdır, bu, eyni zamanda dövlət büdcəsinə daxilolmaları artırır. Bu həm də yerli şirkətlərin maliyyə bazasının və investisiya imkanlarının artmasına səbəb olur".

**İqtisadçı ekspert bildirdi ki, bu prosesin neqativ cəhəti ondan ibarətdir ki, Azərbaycanın özünün də investisiyaya ehtiyacı var, xüsusən qeyri-neft sektoruna yatırımların artırılmasına ehtiyac var:** "Həm dövlət, həm də özəl şirkətlər tərəfindən investisiyaların xaricə yönəlməsi daxildə investisiya tələbatının ödənilməsində çətinliklərin yaranmasına gətirib çıxara bilər. Hələ bu hal elə də ciddi müşahidə edilmir. Çünki daxili investisiyaların həcmi, xüsusən dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi sabit olaraq qalmaqdadır. Növbəti aylarda da yerli şirkətlər, xüsusən Dövlət Neft Şirkəti tərəfindən xaricə çıxarılan investisiyaların həcmində ciddi artımlar olacaq. Dövlət şirkətləri yenə də xaricə yönəldilən investisiyaların həcmində aparıcı olacaq, Dövlət neft Fondunun vəsaitlərinin Avropa ölkələrinə yönəlməsi müşahidə olunacaq. Özəl şirkətlərin də Türkiyə və Mərkəzi, Şərqi Avropa ölkələrində rəqabət qabiliyyətinin artdığını nəzərə alsaq, yerli şirkətlərin həmin ölkələrə yatırımlarının artacağı gözlənilir. Güman olunur ki, azərbaycanlı həm dövlət, həm də özəl sahibkarlar 2015-ci ilin ikinci yarısında da Mərkəzi Şərqi Avropa ölkələrinə və Türkiyəyə yönəldilən vəsaitlərinin həcmini artıracaqlar. Türkiyədə daha çox turizm sekoruna vəsait yönəldilir. Bu da həmin ölkənin turizm sektorunun regionda çox cəlbedici bir mövqedə olması ilə bağlıdır".

**V.Bayramovun sözlərinə görə, Azərbaycanda biznesin qeyri-leqal yollarla idarə olunmasını birmənalı şəkildə iddia etmək olmaz:** "Bütün hallarda bu sahənin öz qanunları var, lakin bu qanunların tam ciddiliyi ilə işlədiyini də demək olmaz. Ancaq mən düşünmürəm ki, bu faktor biznesmenlərin xaricə investisiya qoymasının əsas səbəbidir. Çünki investisiyaların strukturuna diqqət yetirsək, həmin investisiyaların bir qismi dövlət şirkətlərinin investisiyalarıdır. İnvestisiyanın sərhədləri yoxdur. Hər bir iş adamı istədiyi ölkəyə investisiya yatırmaqla bağlı qərar qəbul etməkdə azaddır. Onu da nəzərə almaq lazımdır ki, xaricdə investisiya imkanları xeyli məhduddur. Azərbaycandan xaricə gedən investisiyalar əsasən dövlət şirkətlərinin investisiyalarıdır. Bu da həmin şirkətlərin xaricə yatırdıqları investisiyadan daha çox gəlir əldə etməsi ilə bağlıdır".

❑ Nərgiz LİFTİYEVA

# Azərbaycanda qızıl bahalaşa bilərmi?



## Samir Əliyev: "Azərbaycanda qızıla olan tələbat kəskin azalıb, bu da bahalaşmaya imkan vermir"

**Dünya bazarında qızıl bahalaşıb. "APA-Economics"in məlumatına görə, qızılın bir bir unsiyasının qiyməti 1,80 dollar artaraq 1 182,20 dollara, gümüş isə 0,01 dollar ucuzlaşaraq 15,95 dollara satılıb.**

Azərbaycan bazarına qızıl məmulatlarının əsasən xaricdən idxal olunduğunu nəzərə alsaq, dünya bazarında qızılın qiymətinin artması ölkəmizdə qızıla necə təsir edəcək?

Məlum olduğu kimi, manatın devalvasiyasından sonra qızılın qiymətində artım gözlənilsə də, iqtisadi böhran səbəbindən tələbatın azalması buna imkan vermədi. Bəs hazırkı durumda vəziyyət necə olacaq?

**İqtisadçı ekspert Samir Əliyev bildirdi ki, ölkəmizdə qızılın bahalaşması gözlənilmir:** "Azərbaycanda zinət məqsədilə istifadə olunan qızıl əsasən idxal olunur. Təbii ki, ölkədə müəyyən qədər qızıl istehsal olunur, ancaq həmin qızıl Mərkəzi Bank tərəfindən alınır. Yəni həmin qızıl bazara yönəlmir və bu səbəbdən istehlakçıların tələbatını ödəmək üçün qızıl idxal edilir. Bu baxımdan dünya bazarında qızılın bahalaşması Azərbaycanda da qiymətlərə təsir edir. İlin əvvəlində ölkədə qızılın bahalaşmasına səbəb olan bir sıra hadisələr baş verdi. Birincisi qızıla aksiz vergisinin tətbiq edilməsi, ikincisi isə manatın devalvasiyası. Belə ki, qızıl dollarla alındığından istənilən halda manatın devalvasiyası qızılın qiymətinə də təsir göstərir. Ancaq bununla belə, biz bazarlarda qızılın bahalaşmasını müşahidə etmirik. Çünki qızılın ucuzlaşmasına səbəb olan bir sıra amillər də var ki, bunların başında son zamanlar yaranan iqtisadi böhran səbəbindən əhalinin qızıla olan tələbatının azalması durur. Bir çox sahələrdə tələbat kəskin azalıb. Bu da qızılın bahalaşmasına imkan vermir".

**Dünya bazarında qızılın bahalaşmasına gəlincə, ekspert bildirdi ki, bu daimi xarakter daşımır, bunu daha çox qiymətin rəqs etməsi kimi də qiymətləndirmək olar:** "Yəni müəyyən bir dövrdə qızıl bahalaşır, növbəti həftə ucuzlaşır. Hələ ki son aylarda qızılın bir unsiyasının qiyməti 1100-1300 dollar arasında dəyişir. Ona görə qızılın qiymətindəki bahalaşmanı mən uzunmüddətli artım kimi qiymətləndirmirəm. Hələ ki qiymət oynamaları var və bu, dünya bazarında neftin və dolların dəyərindən asılı olan məsələdir. Bu gün qızılın qiymətindəki artım uzunmüddətli xarakter daşımadıqca bunun Azərbaycan bazarına təsiri gözlənilən deyil. Qiymət artımı olsa belə, bunu dünya bazarında qızılın bahalaşması ilə əlaqələndirmək olmaz. Ona görə də bu gün yerli bazarda qızılın ucuzlaşması müşahidə olunur, nəinki bahalaşması".

❑ Nərgiz LİFTİYEVA

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 128 (6156) 13 iyun 2015

**Avropa Oyunları birbaşa və dolayısıyla Dağlıq Qarabağ məsələsini müəyyən dərəcədə də olsa, regional gündəmin ön sıralarına daşıyıb. Hər halda, münaqişənin həllində mühüm rıçaqları hələ də əlində saxlayan Rusiyanın prezidenti Vladimir Putinin oyunların açılış mərasiminə qatılmaq üçün Bakıya gəlməsi, prezidentlərin Bakı görüşlərində əsas müzakirə mövzularından biri kimi Dağlıq Qarabağ məsələsinin də nəzərdə tutulması, eyni vaxtda ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlikin Bakıya və İrəvana səfərə eləməsi nikbinliyi artırır.**






# İşğalçı Ermənistan - Qərbin ərköyün “uşağı”

## Qarabağ probleminin ədalətli həlli yolunda daha bir fürsət yaranıb - Bakı fürsəti; təcavüzkara Rusiyanın münasibəti nəyin qarşılığında dəyişə bilər?..

Bir çox siyasi analitiklər Putinin və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakı səfərini bu xüsusda bir fürsət hesab edirlər. Məsələn, **politoloq Elxan Şahinoğlu** bu qənaətdədir. O, Bakı görüşlərində danışıqların üç əsas məsələ ətrafında olacağını bildirib: “Üç dövlətin lideri arasında regional mövzuları müzakirə etmək üçün yaxşı fürsət yaranıb. Liderlərin ikili və ya üçlü görüşündə müzakirə olunacaq əsas 3 sual budur: 1. Rusiya Dağlıq Qarabağ münaqişəsinin həlli və işğal faktının ortadan qaldırılması məqsədilə Ermənistana təsir etməyə hazırdırmı? 2. Bunun müqabilində Azərbaycan Kremlin istəyi ilə Avrasiya İqtisadi Birliyinə üzv olacaqmı? 3. Azərbaycan və Türkiyə Türkmənistan qazının Xəzərin dibi ilə Avropaya çatdırılması və çatdırılmaması məsələsində Rusiyanın maraqlarını nəzərə alacaqlarmı? Önəmli olan Qarabağdır, əgər Putin bu problemin həllində real addım atacaqsa, Azərbaycan və Türkiyə digər iki məsələdə Rusiyanın maraqlarını nəzərə almağa hazır olacaq”.

***

Lakin hələ ki Putinin öz çantasında nə gətirdiyi məlum deyil. Ötənlərin təcrübəsindən çıxış eləsək, ifrat optimizmə qapılmağa dəymir əslində. Xüsusən də Putinin səfəri ərəfəsi Rusiya XİN-in rəsmisi Aleksandr Lukaşeviçin “Transxəzər” qaz kəməri ilə bağlı Azərbaycana ünvanlı qaz şantajı Qarabağla bağlı nikbinliyi faktiki, heçə endirir. Belə çıxır ki, Kreml başçısı Bakıya şərt eşitməyə yox, şərt irəli sürməyə gəlir.

Hər halda, əgər Putin Bakı danışıqlarının yekunu olaraq yenə Ermənistanı “sudan quru” çıxarsa, öz forpostunu işğalçı adlandırmasa, problemin həllini həmişəki kimi şablon şəkildə münaqişə tərəflərinin öz üzərinə atsa, deməli, Qarabağ danışıqlarının daha bir raundu nəticəsiz bitib, daha bir fürsət qaçırılıb - həm də elə Azərbaycanı qeyd-şərtsiz, Ermənistan kimi Avrasiya İqtisadi Birliyində gözləyən Rusiyanın özü üçün.

Məsələ də ondadır ki, Ermənistana münasibətdə “işğalçı” sözünün işlədilib-işlədilməməsi artıq çoxdan bir növ lakmus kağızına çevrilib. Söhbət ilk növbədə dünyanın böyük dövlətlərindən gedir. Çünki sirr deyil ki, Dağlıq Qarabağ kimi konfliktlərin nizamlanmasında beynəlxalq təşkilatlardan qat-qat çox fövqəldövlətlərin mövqeyi önəm daşıyır.

***

Sevindiricidir ki, “G 7-nin *(”Böyük yeddilik" - ABŞ, Yaponiya, Almaniya, Britaniya, Fransa, Kanada və İtaliya)* ötən bazar Almaniyada keçirilən son zirvə toplantısında liderlərin qəbul elədiyi yekun bəyanatda məhz belə bir mövqe də yer alıb. Orada deyilir: “Dünyada olan bir sıra böhranlar baxımından biz - ”Böyük yeddilik" dövlətləri olaraq azadlığın, suverenliyin və ərazi bütövlüyünün müdafiəsində birlikdə dayanmışıq. Biz bütün dövlətlərin suveren bərabərliyini, ərazi bütövlüyünü və siyasi müstəqilliyini müdafiə edən bütün səylərə güclü dəstək verəcəyik".

**Siyasi şərhçilərdən biri, REAL hərəkatının İdarə Heyətinin üzvü Erkin Qədirli hesab edir ki, “G 7"-nin ölkələrin ərazi bütövlüyü ilə bağlı verdiyi bu bəyanat Azərbaycan üçün unikal imkan yaradır. Sitat:** ”Bütün dövlətlərin" və “bütün səylərə” ifadələri maraqlıdır. Əvvəllər belə demirdilər. Ukraynanı, Gürcüstanı və Moldovanı dəstəkləyəndə həmişə, müvafiq olaraq, Krımı, Abxaziyanı və Güney Osetiyanı, Dnestryanı bölgəni xüsusilə vurğulayırdılar. Bizə gələndə isə Qarabağın adını çəkmirdilər. İndi bundan sonra bu bəyanatda yazılmış “bütün dövlətlərin” ifadəsindən biz bərk yapışmalı və Qərb ölkələrinə onu davamlı xatırlatmalıyıq".

Bu arada ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Samanta Pauer Qarabağ məsələsində Azərbaycanın haqq işinə birbaşa dəxli olan və ikili standartlardan xəbər verən açıqlama ilə çıxış edib. Xanım diplomat bildirib ki, Krım Ukraynanın nəzarəti altına qayıtmayınca, Rusiyaya qarşı sanksiyalar götürülməyəcək. “Çünki ilhaq - beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır” - əlavə edib amerikalı diplomat.

***

Çox yaxşı. Bəs Ermənistana Dağlıq Qarabağı ilhaq etməsi beynəlxalq hüququn kobud şəkildə pozulması deyil? Öz qonşusu Azərbaycanın torpaqlarının 20%-ni işğal etdiyinə görə nə vaxt Ermənistana sanksiya tətbiq ediləcək? Yoxsa Azərbaycan BMT-nin suveren üzvü hesab edilmir?

Edilir əlbəttə ki. Di gəl, ikili standartlar, xristian amili və ya təəssübkeşliyi, üstəgəl də Ermənistanın Rusiyaya sığınması faktı postsovet məkanındakı ən böyük işğal faktını görməyə qlobal güclərə, ABŞ-a “mane olur”. Paradoks da ondadır ki, Rusiya Qərbin gözündə əbədi işğalçı ola-ola, təcavüzkar Ermənistan “ərköyün” və “şıltaq” uşaq qismindədir. Görəsən, niyə? Belə ikili standart vəziyyəti, yaxud ikili standart siyasəti nə qədər sürəcək?

Əsas sual da budur. Şübhəsiz ki, Qarabağ məsələsinin ədalətli həlli həm də Rusiyanın ona ənənəvi yanaşmadan əl çəkməsindən keçir. Moskva buna hazırdırmı və nə vaxt gedəcək? Azərbaycan Avrasiya Birliyinə üzvlüyə razılıq verəndən sonramı?

***

İstisna deyil ki, bu qəbildən cavab gözləyən suallara Azərbaycan, Rusiya və Türkiyə prezidentlərinin ikili və yaxud üçlü Bakı görüşlərindən sonra aydınlıq gəlsin, lap dəqiqi, konkret olaraq Rusiyaya bel bağlamağın mümkünlüyünə yəqinlik hasil edilsin.

# Ermənistanda böyük müharibə xofu

**Bakıda Avropa Oyunları başa çatdıqdan sonra nə olacaq? Bu məsələ erməni cəmiyyətini bərk narahat edir, xüsusilə də anaları, çünki son zamanlar onlar çox sayda övladlarını itiriblər. Ona görə də tez-tez etiraz mitinqlərinə çıxırlar.**



ATƏT-in Minsk Qrupunun həmsədri Ceyms Uorlikin İrəvana səfərindən danışan “168 jam” qəzeti diplomatın radiostansiyalardan birində çıxışına diqqət yetirib. Uorlik bildirib ki, Qarabağda genişmiqyaslı müharibə başlasa, münaqişəni dinc yolla həll etmək mümkün olmayacaq. Qəzet bildirir ki, bu, əlbəttə, yenilik deyil. Yenilik odur ki, artıq həmsədrlər səviyyəsində genişmiqyaslı münaqişə barədə anons verilir.

Erməni ictimaiyyətini həm də Rusiya - Azərbaycan münasibətlərinin istiləşməsi, Putinin Bakıya səfəri çox narahat edir. Qonşu ölkə mətbuatı Rusiya ekspertlərinin çıxışlarına da yer verib. Onların fikrincə, indiki vəziyyətin dinc yolla həlli tapılmasa, müharibə qaçılmazdır. “168 jam”ın yazdığına görə, görünür, Uorlik İrəvana ona görə gəlib ki, Ermənistan hakimiyyətinə gözlənilən fəlakət barədə xəbərdarlıq etsin.

Bakı isə hesab edir ki, münaqişənin nizamlanmasının ləngiməsi gerçəkdən əməliyyatların gərginləşməsinə gətirə bilər. Çıxış yolu isə var və bunu Azərbaycan prezidenti İlham Əliyev də səsləndirib. “Çıxın evinizə gedin”, - deyə o, işğalçı Ermənistan ordusuna üz tutaraq bildirib.

Azərbaycan ordusunun gücünü öz üzərində hiss edən erməni ictimaiyyətində isə müəyyən barışıq təklifləri eşidilməkdədir. Məsələn, “Aravot” qəzeti Sorbonna Universitetinin professoru Armen Mutafyanla müsahibə dərc edib. O hesab edir ki, Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş rayonları Azərbaycana qaytarmaq lazımdır. Professorun fikrincə, bu, vəziyyətdən ən yaxşı çıxış yoludur.

Ən başlıcası odur ki, erməni siyasətçilər anlamalıdırlar ki, Cənubi Qafqazda ikinci erməni dövlətinin yaradılması kimi sərsəm ideyadan birdəfəlik əl çəkilməlidir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 128 (6156) 13 iyun 2015

# "Gəncəbank" rəhbəri Azərbaycan məhkəməsini saymır

## Natalya Kərimova: "Pərvanə Novruzova malımı alıb, indi də canımı almağa çalışır"

**“”Gəncəbank"ın rəhbəri Pərvanə Novruzova Kəpəz Rayon Məhkəməsinin çıxardığı qərarı saya salmır, icra etmir. Məlumdur ki, məhkəmə qərarları, qətnamələri, hökmləri Azərbaycan Respublikası adından çıxarılır". Bunu P.Novruzova ilə məhkəmə çəkişməsi olan Natalya Kərimovanın vəkili deyir.**




Məsələ burasındadır ki, P.Novruzovanın iddiası əsasında 2002-ci ildə Kəpəz Rayon Məhkəməsi Natalya Kərimovanın gözəllik salonu və 2 mənzilinin iddiaçının həyat yoldaşının adına keçirilməsi haqda qiyabi qətnamə çıxarıb. 2015-ci ilin mayında isə N.Kərimovanın vəkilləri Kəpəz Rayon Məhkəməsinə müraciət edərək qiyabi məhkəmə qətnaməsinin ləğvinə nail olublar. Bundan sonra Pərvanə Novruzova Natalya Kərimovanın əmlaklarını - gözəllik salonunu və 2 mənzilini ona qaytarmalı olsa da, bundan müxtəlif bəhanələrlə yayınır. N.Kərimovanın vəkili C.Yusifov deyir ki, qiyabi qətnamənin ləğvindən sonra tərəflər ilkin mövqelərinə qayıdıblar: “Pərvanə Novruzova Natalya Kərimovanın əmlaklarını özünə qaytarmaqdan yayınır. Kəpəz Rayon Məhkəməsində qiyabi qətnamənin ləğvindən sonra ilk məhkəmə baxışı təyin olundu. Lakin ”Gəncəbank" əsassız bəhanə ilə iclasa qatılmadı, iclas təxirə salındı. Məqsədləri həmin əmlakın ələ keçirilməsinə hüquqi əsas verən qətnamənin ləğvindən sonra tərəflərin əvvəlki vəziyyətə gətirilməsi - yəni həmin daşınmaz əmlakların gözəllik salonu və mənzillərin Natalya Kərimovanın mülkiyyətinə keçirilməsinin baş tutmasını əngəlləməkdir. Buna görə də bu cür süni bəhanələrlə Natalya Kərimovanın hüquqlarının bəpasına maneçilik törədirlər".

**Natalya Kərimova özü isə bildirir ki, məhkəmənin əmlakların onun mülkiyyətinə keçməsi haqda məlum qərarından sonra onu təqib edirlər:** “Mən Azərbaycana qayıdandan sonra hüquq-mühafizə orqanlarına təhlükəsizliyimin təmin olunması üçün müraciət emişəm. Amma Pərvanə Novruzova məndən əl çəkmir. Qohumlarıma təzyiqlər olunur, mənim yerimi aydınlaşdırmağa çalışırlar. Qohumlarıma hədə-qorxu gəlirlər ki, məni tapsalar vəziyyətim pis olacaq. Malımı alıblar, indi də canımı almaq istəyirlər”.

N.Kərimova prezidentdən kömək istədiyini də açıqlayıb.

Qeyd edək ki, 2002-ci ildə “Gəncəbank” ASC Natalya Kərimovaya qarşı iddia qaldırıb. Lakin həmin vaxt N.Kərimova P.Novruzova tərəfindən ölkədən çıxarıldığına görə o, həmin iddiaya baxılarkən məhkəmədə iştirak edə bilməyib. Buna görə də məhkəmə N.Kərimovaya məxsus əmlakların - “Nataşa” salonunun, Gəncə şəhərində 2 mənzilin bankın sərəncamına keçməsi haqda qiyabi qərar çıxarıb. 2015-ci il mayın 19-da çıxarılan qərarla “Gəncəbank” ASC-nin Natalya Kərimovaya qarşı iddiasının təmin edilməsi haqda 2002-ci ildə çıxarılan qiyabi qərar ləğv olunub. Həmin qiyabi qərarda N.Kərimovaya məlum olmayan və ondan xəbərsiz tərtib olunan müqaviləyə istinad olunub. Müqavilədə yazılıb ki, guya öhdəliyin təminatı kimi “Nataşa” salonu girov qoyulub və guya Natalya Kərimova ödəmə həyata keçirmədiyindən girov “öhdəliyin” təminatına yönəldilib. Bu, faktiki olaraq N.Kərimovaya məxsus salonun məhkəmə aktı ilə qanunsuz olaraq ələ keçirilməsi olub. Çıxarılan qətnamə ilə Natalya Kərimovaya məxsus olan və “Gəncəbank” İdarə Heyətinin sədri Pərvanə Novruzovaya keçməsinə dair hüquqi əsas yaratmış Kəpəz Məhkəməsinin 2002-ci il tarixli qiyabi qətnaməsi şikayətimiz əsasında ləğv olunub. Bununla da həmin hüquqların pozulmasına əsas verən qətnamə hüquqi qüvvəsini itirib.

Qeyd edək ki, “Gəncəbank”da baş verən qanunsuzluqlar haqda dəfələrlə yazmışıq. Bank rəhbəri P.Novruzovanın banka yolu düşmüş Natalya Kərimovaya məxsus əmlakları mənimsəməsi, Gəncə sakini Şahin Bağırlının almadığı kreditə görə 85 min manat borcla yüklənməsi, evinin əlindən alınması, mərhum prezident Heydər Əliyevin fədakar əməyinə və çoxuşaqlı ata olduğu üçün Gəncə sakini Əli Əliyevə verdiyi mənzilin onun oğlundan saxtakarlıqla alınması, Samux rayon sakini İltimas Əliyevanın torpağının qanunsuz yollarla əlindən alınması da bankda baş verən qanunsuzluqların çox cüzi hissəsidir.

❑ E.MƏMMƏDƏLİYEV

*P.S. Yazıda adı hallanan hər kəsin, “Gəncəbank”ın mövqeyini dərc etməyə hazırıq.*


# Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini

**d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarıın dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra

**Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

**Sabunçu rayonu Şəhər Şossesi, Elşən Mehdiyev küçəsində 3,7 sot torpağın içində 4 otaqlı ev satılır. Ev Koroğlu metrosundan 5 dəqiqəlik yolda, Sabunçu körpüsünün yanında, Bakı Olimpiya stadionunun yaxınlığında yerləşir. Hər şəraiti (qaz-işıq), telefonu, interneti, xüsusi xətlə çəkilmiş daimi şirin suyu, həyətində 10 tonluq su hovuzu var. Evin ümumi sahəsi 120 kv.metrdir. Hamam-tualet evə bitişikdir. Evdən əlavə, həyətdə iki otaqlı yardımçı tikili var. Bir balaca əl gəzdirməklə tikilidən yaşayış məqsədilə də istifadə etmək mümkündür. Həyətdə həmçinin meyvə ağacları var. Qiyməti razılaşma ilə.**

**Telefon: 055 260 69 84.**




# Xanim idmançımız 4-cü dəfə mütləq Avropa çempionu oldu

**8 iyun 2015-ci il tarixində Latviyanın paytaxtı Riqa şəhərində pauerliftinqin WPC versiyası üzrə növbəti Avropa çempionatı start götürüb. Çempionatda həmyerlimiz, Azərbaycan yığma komandasının favoriti, 2012-2014- cü illər ərzində üçqat mütləq Avropa, ikiqat mütləq dünya çempionu, Heydər Əliyev kubokunun sahibi olan Günel Talıbova da çıxış edib.**

O, 11 iyun tarixində növbəti uğurlu çıxışı ilə 4-cü dəfə mütləq Avropa çempionu olub.

Qeyd edək ki, Günel Talıbova mütləq dünya rekordçusudur. Onun haqqında Amerikanın, Rusiyanın və digər ölkələrin mətbuatında kifayət qədər yazılar dərc olunub. Həmçinin xeyli sayda müsahibələri yerli və dünya mətbuatında yer alıb.




# Bu körpənin yaşaması üçün 15 min dollar lazımdır...

**3 yaşlı Xədicə hazırda ölümlə çarpışır. O, Türkiyədə Hacəttəpə Universitetinin onkoloji xəstəliklər bölümündə müalicə olunur. Döş qəfəsində 10 sm böyüklüyündə cisim aşkarlanıb və bu, onun nəfəs yolunu kəsib. Xədicənin yaşaması, sağalması mümkündür, həyatı 15 min dollardan asılıdır. Vaildeynlərinin bu məbləği ödəmək imkanı olmadığı üçün balaca Xədicə üçün imkanlı şəxslərə yardım üçün müraciət ediblər...**

Kömək etmək istəyənlər şəkildəki bank hesablarına vəsait köçürə bilərlər.

# Azərbaycanlı qadın Aktau aeroportunda öldü

**Qazaxıstanın Aktau şəhərindən Bakıya uçan sərnişin təyyarəsinə bilet almış azərbaycanlı qadın aeroportda ölüb. Virtualaz.org saytı Qazaxıstan KİV-lərinə istinadən xəbər verir ki, təyyarəyə minik başlamasına az qalmış 46 yaşlı qadının vəziyyəti pisləşib. Onun IV dərəcəli qaraciyər serrozundan əziyyət çəkdiyi, aeroporta gələndə vəziyyətinin pisləşdiyi bildirilir.**

Aktau beynəlxalq aeroportunun əməkdaşları ona təyyarəyə minməyə icazə verməyiblər. Belə ki, bu vəziyyətdə olan xəstələrin təyyarəyə minməsi beynəlxalq aviasiya konvensiyasına əsasən qadağandır.

Təyyarə iyunun 11-də yerli vaxtla axşam saat 20:00-da havaya qalxıb, saat 20:08-də isə aeroportda qalan sərnişin keçinib. Bildirilir ki, qadın Qazaxıstanda daimi yaşayırmış və ölüm ayağında vətəninə gəlmək istəyirmiş.


# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

# Öldürülən kardioloqun atası baş prokurordan kömək istəyir

## Zaməddin Həmişəyev oğlu Cavidin qətl işinin istintaqının obyektiv aparılmadığını deyir...

**Öldürülən həkim Cavid Həmişəyevin atası Zaməddin Həmişəyev baş prokuror Zakir Qaralova müraciət edib. Redaksiyamıza gələn Z.Həmişəyev oğlunun sifarişlə qətlə yetirildiyini yazıb. Baş prokurora ünvanladığı müraciəti redaksiyamıza təqdim edən Z.Həmişəyev xahiş edir ki, onu olduğu kimi dərc edək.**

"Oğlum, tibb elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan, Türkiyə, Rusiya, ABŞ və Beynəlxalq Kordioloqlar Cəmiyyətinin fəxri üzvü, həkim-kordioloq Həmişəyev Cavid Zaməddin oğlunun xüsusi amansızlıqla qətlə yetirilməsindən 2 il keçdi. Bu dövr ərzində aparılan istintaq araşdırmaları reallığı əks etdirmir, dəfələrlə etdiyimiz yazılı və şifahi müraciətlərimiz nədənsə cavabsız qalır, bir sözlə, istintaq və məhkəmə araşdırması heç kimi qane etməyəcək tərzdə aparılıb. Belə ki, bəzi faktları sadalamaqla nəzərinizə çatdırım ki, qanunvericiliyin müddəaları həm Nərimanov Rayon Prokurorluğunun *(müstəntiq Vüqar Kərimov),* həm də Bakı Şəhər Prokurorluğunun araşdırmasında ciddi şəkildə pozulub - cinayətin motivləri göstərilsə də.

***Hadisənin baş vermə səbəbləri dərindən araşdırılmayıb:***

**1.** Oğlumun dəfn mərasiminin 2-ci günü gəlinim İradə Orucovanın həyat yoldaşı, mərhum Cavidin yoxluğunu hiss edərək ağrı-acı çəkməkdənsə, dəfn mərasimini yarımçıq qoyaraq Bakı şəhərinə qayıtması, təcili olaraq Aslan İsmayilovu vəkil kimi işə cəlb etməsi və adi etik qaydaları gözləmədən özünü zərərçəkmişin hüquqi varisi kimi tanıtması *(cinayəti üstünün ört-basdır olunması məqsədi güdüb);*

**2.** Oğlumun ölümündən 21 gün əvvəl ona mesajla qəbir başdaşı göndərməsi və qəbir daşı üzərində "ruhuna el-fatihe, şükürlər olsun kocacığım, ən azından artıq nerede olduğun bəlli... karın" *(cinayət əməlinin olacağının təsdiq olunması);*

**3.** Oğluma məxsus bağ evinin açılışının hamılıqla razılaşaraq may ayının 26-na təyin olunması, sonradan gəlinim İradənin təkidi ilə oğlumun ölüm gününə, yəni 25.05.2013-ci tarixə dəyişdirilməsi *(heç kimin hiss etməməsi üçün belə planlaşdırması);*

**4.** Nərimanov Rayon Prokurorluğunun müstəntiqi Vüqar Kərimovun "bomba xəbər bilirəm, amma deməyəcəyəm, kimə istəsəniz şikayət edin" - ifadəsi *(müstəntiq belə ifadəni elə-belə söyləməz);*

**5.** Cinayətin iştirakçısı Koroğlu Məmmədovun guya təsadüfən kafedə tanış olduğu Türkanı bir gün sonra evinə aparması və onunla ailə quracağını həm ona, həm də valideynlərinə bildirməsi *(kafedə işləyən qızı tanımadan evinə aparması, tanımadığı qıza evlənəcəyini söyləməsi, bir həftə sonra cinayət törətməsi ən azından bu cinayət əməlinə bariz sübutdur);*

**6.** Oğlumun ölümündə guya Koroğlu Məmmədovun tək olması və sonradan pəncərədən Yasin Ərəbovu çağırması *(halbuki evin həmin hissəsində pəncərə olmayıb);*

**7.**Cinayət zamanı K.Məmmədovun şalvarının, "cinayətdə iştirak eləməyən" Y.Ərəbovun isə köynəyinin qana bulaşması *(fikir verin, öldürənin şalvarı, hadisədə iştirak "etməyənin" köynəyi qan olur. Eyni zamanda 36 yaşlı cavan oğlanın onu öldürənlərə heç bir müqavimət göstərməməsi nə dərəcədə inandırıcıdır?);*

**8.** Zərərçəkmişin hüquqi varisi İradə Orucovanın varis olması ilə bizim bütün hüquqlarımızı *(cinayət işinə aid hissədə) əlinə alması (yəni cinayətin araşdırılması zamanı özünün heç bir hərəkət etməməsi, bu hüquqların isə bizdən alınması, onun bu cinayətdə əli olmasına sübutdur);*

**9.** Zərərçəkmişin hüquqi varisi olaraq heç bir vəsatət, şikayət, irad, rəy bildirməməsi



faktları *(çünki cinayət işi onun istədiyi kimi aparılırdı)* - istintaq tərəfindən araşdırılmayıb və hüquqi qiymət verilməyib.

**10.** Ağır Cinayətlərə Dair Məhkəmə iclasları zamanı cinayətdə iştirak etmiş Türkan Ağayevanın "mən onu öldürmək istəsəydim, özüm öldürərdim, mənə kömək lazım deyildi", "mən ondan uşaq istəyirdim, mən onu heç vaxt öldürməzdim", sonra İradə Orucovaya üzünü tutaraq "bu işin birbaşa təşkilatçısı sənsən. Sən niyə danışırsan?";

**11.** Bakı Apelyasiya Məhkəməsi zamanı qışqıraraq İradə Orucovaya "bunları sən etdirmədinmi? İndi bizə irad tutursan?"- ifadələrinə məhkəmə tərəfindən qiymət verilməyib.

Göstərdiyim bu faktların heç biri istintaq tərəfindən araşdırılmayıb və hüquqi qiymətini almayıb. Eyni zamanda hər iki məhkəmə instansiyasında deyilən sözlərə əhəmiyyət verilməyib. Halbuki cinayətkarların hər üçü məhkəmə zalında istintaqın düzgün aparılmaması, müstəntiq tərəfindən təzyiqlərə məruz qalmalarını birbaşa etiraf etsələr də, hətta istintaqın gedişində cinayətkarlar tərəfindən verilən şikayətlərə əhəmiyyət verilməməsi, bu işin aparılmasında kimlərinsə birbaşa və ya dolayısı ilə maraqlı olduqları faktını tam açıq şəkildə göstərsə də, həm istintaqın gedişində, həm də məhkəmə gedişində kölgədə qalıb.

Beləliklə də sadaladığım faktlara əsasən, gəlinim İradə Orucovanın hərəkətlərində və əməllərində ciddi şübhələr yaranıb və inanıram ki, bu şübhələrin dəqiq araşdırılması bu cinayət əməlinin baş vermə səbəbinə aydınlıq gətirəcək" - deyə Z.Həmişəyev baş prokurora müraciətində qeyd edir.

**Şikayətçi daha sonra yazır ki, gəlinləri İ.Orucova ilə münasibətləri yaxşı olub:** "Cavidin ölümündən sonra tək İradə yox, onun bütün qohum-əqrəbası bizə soyuq münasibət göstərdilər. Hətta nəvələrimin bizimlə görüşünü qadağan etdilər. Gəlinim İradənin "biz Cavidlə 2 ildən çoxdur ər-arvad ünsiyyətində deyilik" - ifadəsi və qəbir-başdaşı göndərməsi ilə bir-birini tam surətdə təsdiqləyir.

Hörmətli Zakir müəllim, sadaladığım bu faktlar söz yığını, qeybət deyil. Cinayətə səbəb olmuş faktlardır. Hər cümlənin arxasında cinayət əməlinin törədilməsinin dəqiq səbəbləri durur. Hesab edirəm ki, İradənin istintaqa cəlb olunması, ifadələrinin alınması, eyni zamanda dəfn mərasiminin 2-ci günü mərasimi yarımçıq qoyub Bakıya dönən həkim dostları ilə birlikdə məsuliyyətə cəlb olunmaları cinayətin açılmasına aydınlıq gətirəcək. Nəzərinizə çatdırım ki, sadaladığım faktlar bizdə, sadəcə, şübhə yaradıb. Bu şübhələrə son qoyulması isə Sizin göstərişinizdən sonra aparılacaq istintaqın nəticələrindən asılıdır. Bir ata kimi Sizdən bu cinayət əməlinin konkret araşdırılmasını acizanə xahiş edirik. Bir daha nəzərinizə çatdırım ki, cinayət işi müstəntiq tərəfindən formal və şablon şəkildə araşdırılıb. Ona görə yekun nəticədə belə qənaətə gəlinib. İradə Orucovanın cinayət məsuliyyətinə cəlb olunması, yuxarıda sadaladığım faktların araşdırılması və işin ədalətli aparılmasına göstəriş verməniz xahiş edirəm. Biz sizə inanırıq və ümidvarıq ki, bu cinayət işi ədalətli aparılacaq".

❑ **E.HÜSEYNOV**

# Teleaparıcıların cəmiyyəti aşağılamasını necə durdurmalı?

## **Qulu Məhərrəmli:** "Belə hallar ona görə yaşanır ki, efirə kimi gəldi buraxırlar"

## **Zeynal Məmmədli:** "İctimai qınaq mexanizmi işləsə, belə hallar azalacaq"

## **Fazil Mustafa:** "Bu, ancaq səviyyə və təhsillə bağlı məsələdir"

**Son vaxtlar televiziyalarda aparıcıların cəmiyyəti, onun dəyərlərini təhqir etməsi halları artıb. Son olaraq da ANS telekanalında yayımlanan "İncə maraqlar" verilişində aparıcı Elnarə Təhməzovanın hicablı xanımlar haqqında işlətdiyi ifadə toplumun dini kəsimində qəzəb yaradıb. Aparıcı kanal rəhbərliyi tərəfindən efirdən kənarlaşdırılıb, üzr istəsə də təbii ki, bu çözüm deyil. Çünki hansısa aparıcını cəzalandırmaqla bunun qarşısı alınmır.**

Xatırladaq ki, az öncə ATV-nin aparıcısı Mətanət Ələverdiyeva Bakıda baş vermiş faciəli yanğınla bağlı işlətdiyi ifadələrlə cəmiyyətin qəzəbinə gəlmişdi. Bəs telekanallarda aparıcıların bu cür davranışının qarşısını necə almalı, bundan ötrü hansısa bir qurum və ya mexanizm yaradılmalıdırmı?

**Professor, tele-tənqidçi Qulu Məhərrəmli** bu cür halların baş vermə səbəbini efirə hazırlıqsız, efir və məişət danışığı arasında fərq qoymayan adamların buraxılması nəticəsində baş verdiyini dedi: "Televiziya yaradıcılığının əlifbası var. Efirə buraxılan adam səviyyəli və savadlı olmalıdır. Apardığı verilişin qaydalarını bilməlidir. Aparıcı üçün verilən şərtlərə, tələblərə cavab verməlidir. Bütün bu tələblərə cavab verən insan efirə buraxılmalıdır. Ona görə də xüsusi bir mexanizm axtarmağa ehtiyac yoxdur. Sadəcə, tələb olunan qaydalara, standartlara əməl etmək lazımdır. Bu hallar ona görə baş verir ki, efirə kimi gəldi buraxırlar. Efirə məsuliyyətsiz, hazırlıqsız, efir və məişət danışığı arasında fərq qoymayan adamları buraxırlar. Nəticədə də bu cür hallar meydana çıxır. Ona görə də bir az məsuliyyəti artırmaq lazımdır".

**Media mütəxəssisi Zeynal Məmmədli isə bu məsələyə cəmiyyət kontekstində baxmaq lazım olduğunu düşünür:** "Baş verən bu cür hadisələrə sırf media, əyləncə kontekstində baxmaq lazım deyil. Buna bütövlükdə cəmiyyət kontekstində baxmaq lazımdır. Milli Məclisdə deputatlardan biri bilərəkdən və ya bilməyərəkdən ədəbsiz sözlər işlədir. Buna görə onu Milli Məclisdən çıxarırlarmı? Yox. Mən başa düşə bilmirəm ki, bizim media niyə aparıcıların bu cür hərəkətlərini ön plana çıxarır? Mediada önəmli olan məsələ aparıcının efirdən adamın gözünün içinə baxa-baxa yalan danışmasıdır. Media təbliğat vasitəsi kimi qalmalıdır. Elnarənin və ya digər aparıcıların nələrsə deməyi olub və həmişə də olacaq. İnkişaf etmiş cəmiyyətlərdə də bu baş verir. Demokratiyanın elə bir pilləsi var ki, müəyyən həddə çatana kimi sən kiminsə çay içməsinin marçıltısına da dözməlisən. Bu, aşağının yuxarıya dırmaşma cəmiyyətidir. Aşağının əxlaqı, davranışı, geyimi, düşüncəsi də yavaş-yavaş bişməlidir".




**Z. Məmmədliyə görə, ictimai qınaq mexanizmi işləsə, belə hallar azalacaq:** "Müəyyən bir dövr və dözüm lazımdır. Bizim ictimai qınaq mexanizmimiz işləsə, peşəkarlığa qiymət verə bilsək və peşəkarlığın hansı özəlliklərinin nəzərdə tutulduğunu göz önünə gətirsək, beynimizə həkk etsək, görəcəyik ki, belə problemlər hərdən bir sensasiya kimi olacaq".

**Deputat Fazil Mustafa insanların efir məkanına bir bayağı vaxt keçirmə məsələsi kimi baxdığını dedi:** "Cinayət hadisələri də bu cürdür. Kimisə cəzalandırırsan, amma yenə də cinayət hadisələrinin qarşısını almaq olmur. Yəni ortada insan amili varsa, istənilən vaxt bu cür hallar olacaq. Çalışmaq lazımdır ki, daha təhsilli və hazırlıqlı insanlar aparıcı qismində kurs keçərək daha ciddi şəkildə savadlanaraq efirə çıxsınlar. Çünki canlı yayımı idarə etmək asan deyil. Kənarda jarqonlarla, başqa üsullarla özlərini, fikirlərini ifadə etməyə öyrəşmiş insanlar efirdə tez-tez belə yanlışlıqlara yol verirlər. Bu, ölkədə ümumi olaraq bayağılıqla bağlı problemdir. Yəni insanlar artıq efir məkanına bir bayağı vaxt keçirmə məsələsi kimi baxırlar. Ona görə də tamaşaçının sadəcə olaraq bəsit bir zövqünü oxşamağa səy göstərir. O səbəbdən də ifadələri seçəndə elə bilir bəlkə bu sensasiyaya daha çox insan cəlb edəcək. Amma reallıq onu göstərir ki, bu, ancaq səviyyə və təhsillə bağlı olan məsələdir. Məsələn, elə aparıcılar var ki, bu qaydaları gözləyir və onlarda hansısa bir problem yaranmır. Problem çıxanların hamısı hiss olunur ki, bir az sensasiya yaratmaq istəyirlər. Ancaq elə yumor olur ki, bu çox sərt qarşılanır. Hər ifadə seçiminə nail olmaq üçün müəyyən təhsilə, bilgi baqajına sahib olmaq lazımdır. Düşünürəm ki, baş verən neqativ halların qarşısını almaq üçün hansısa qurumun yaradılmasına ehtiyac yoxdur. Məsələyə cəmiyyət tərəfindən təpkilər artdıqca, hər halda, telekanallar da maraqlı olacaqlar ki, daha hazırlıqlı kadrların cəmiyyət qarşısına çıxarılmasını təmin etsin".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 128 (6156) 13 iyun 2015

# Doğum ayları xəstəlik risklərini göstərir

Amerikada 1,7 milyon xəstənin səhhəti və doğum tarixləri haqda araşdırma aparılıb. Nyu-Yorkun Kolumbiya Universitetinin alimləri insanın doğulduğu ayın onun səhhətinə necə təsir etdiyini müəyyənləşdiriblər. Mary Regina Boland və Nikolas Tatonetti 1985-2013-ci illərdə doğulmuş 1,7 milyon xəstənin səhhətləri haqda araşdırma aparıblar. Uzun müddət davam edən araşdırmalar nəticəsində məlum olub ki, fevral, mart, aprel aylarında doğulanlar ürək xəstəliklərindən, sentyabr, oktyabr, noyabr aylarında doğulanlar isə nəfəs yolu ilə bağlı problemlərdən əziyyət çəkirlər.




# Böyrəyindən 420 daş çıxdı



Çində bir xəstə tibb tarixinə keçəcək bir əməliyyata imza atıb. Şiddətli qarın ağrısı şikayəti ilə xəstəxanaya gedən 55 yaşlı qadının böyrəyindən 420 ədəd daş çıxarılıb. Yaşlı qadın yediyi yeməklər haqqında həkimə məlumat verdiyi zaman böyrəyindəki daşın tofu adlı pendirə görə artdığı məlum olub. Çinli qadın 2 saatlıq əməliyyatdan sonra böyrəyindəki daş təmizlənib. Hazırda xəstənin səhhətini yaxşı olduğu deyilib.

## Bibəriyə bitkisinin faydaları və zərərləri




Bibəriyə bitkisi kiçik bir şam ağacını xatırladır və qoxusu ilə mətbəxdə yer tutur. Yarpaqları həmişəyaşıl bu bitkinin həzm pozğunluğu və qəbizlik kimi problemlərə yaxşı təsir etdiyi bildirilir. Bibəriyə yağı bibəriyə bitkisinin yarpaqlarından distillə ilə əldə edilən sağlam bir yağ növüdür. Buxarı çıxarılaraq yağ əldə edilir. Bibəriyənin faydaları:

- Ümumiyyətlə, çay kimi istifadə olunur.
- Yaddaşı qüvvətləndirən bir təsiri vardır.
- Həzm pozğunluğu problemi yaşayan insanlar üçün təsirlidir.
- Qəbizliyi aradan qaldırır və həzm sistemini gücləndirir.
- İmmunitet sistemi üzərindəki rolu olduqca təsirlidir və immunitet sistemini qoruyaraq gücləndirir.
- Bədəndəki toksinlərin daha sürətli şəkildə bədəndən atılmasına köməkçi olur.
- Qan dövranını sürətləndirir.
- Beyin və ürək kimi bədənin ən əhəmiyyətli orqanlarına daha çox oksigen daşınmasında kömək edir.
- Baş ağrısı və Migren kimi problemləri olan xəstələrdə təsirlidir.

# Dünyanın rekord təzminatları

- Amerikanın ən zəngin 13-cü iş adamı və neft milyarderi olan Harold Hamm 10 boşanmaq üçün çalışdığı həyat yoldaşı Sue Ann ondan 8,5 milyard dollar tələb edir. H.Hammın ona təklif etdiyi 1 milyard dollarlıq təklifi rədd edib.
- 8,8 milyard dollarlıq sərvəti ilə dünyanın ən zəngin iş adamları siyahısında 147-ci sırada olan rus Dmitri Rybolovlev ayrıldığı arvadına 4,5 milyard dollar ödəyəcək.
- Fransız iş adamı Alec Vildenstein 1999-cu ildə arvadı Joceldən boşanmaq üçün 2,5 milyard dollar ödəyib.
- Formula 1 yarışlarının müdiri Bernie Ecclestone 24 illik arvadı Slavikadan boşandığı zaman 1,2 milyard dollar ödəyib.
- Səudiyyə Ərəbistanından olan iş adamı Adnan Qaşıqçı arvadı Surəyyadan ayrıldığı zaman ona 850 milyon dollar ödəyib.



## Baxışına görə məhkəməyə verildi

Çində yaşayan adam məşhur aktrisa Zao Veinin televizorda izləyərkən onun baxışlarından narahat olduğunu deyib. Çinin Şanxay şəhərinin sakini aktrisanın baxışlarının ona mənəvi zərər verdiyini bildirib. Zao Vein qızını nəzarət altında saxlayan ana rolunu oynayır. Çinin Yüksək Məhkəməsi belə məhkəmə proseslərinin aktrisaların haqlarından sui-istifadə etdiyini deyirlər.



## Ev tapşırıqlarına qarşı kampaniya

İspaniyada yaşayan bir ana uşaqlara verilən həddən çox ev tapşırığına görə məhkəməyə müraciət edib. 3 uşaq anası olan Eva Bailenin 10 yaşlı oğluna verilən 3 saatlıq ev tapşırığından sonra online imzatoplama kampaniyası başladıb. Bailenin sözlərinə görə, məktəbdə müəllimlər 10 yaşlı uşağa ev tapşırığını etməsə oyun oynamasına icazə verilməyəcəyi deyilib. Ana hökumətdən ev tapşırıqlarının azaldılmasını tələb edir. Facebook üzərindən minlərlə insan Bailenə dəstək verir. Anaya dəstək verənlər arasında bir orta məktəb müəllimi də var. O, qızı məktəbdə oxuyarkən rahat yatması üçün saatlarla onun yerinə ev tapşırıqlarını etdiyini deyib. Ev tapşırıqlarının həddən çox olması uşaqların yorulmasına səbəb olur və onlar özlərinə vaxt ayıra bilmirlər.

## Qoroskop




**QOÇ** - Kifayət qədər sürprizli vaxtdır. Ağlınıza gəlməyən istiqamətlərdən ürəyinizcə olan xəbər və ya təklif ala bilərsiniz. Fəaliyyətlə əlaqəli olmasa, heç bir uzaq səfərə çıxmayın.

**BUĞA** - İxtiyarınızda olan bu gündə işləriniz çox olacaq. Bu səbəbdən də ikitərəfli əməkdaşlığa başlamağa dəyər. Əmin olun ki, bu təqvimdə əziyyətlərinizin bəhrəsini görəcəksiniz.

**ƏKİZLƏR** - Ulduzların düzümü şəhadət verir ki, günün ilk yarısını daha çox Allaha ibadətlə başa vursanız, sonrakı saatlarda heç bir maddi-mənəvi sıxıntı çəkməyəcək, gümrah olacaqsınız.

**XƏRÇƏNG** - Maraqlı insanlarla rastlaşacağınıza inana bilərsiniz. Ola bilsin ki, həmin şəxslər perspektivlərinizin reallaşmasına yardımçı olsun. Ünsiyyətdə acıdil və qərəzli olmayın.

**ŞİR** - Nə qədər çətin olsa da, bu təqvimi təmkinlə başa vurmalısınız. Əks təqdirdə, qarşıdakı ongünlük üçün nəzərdə tutduğunuz mühüm planlarınızın reallaşması xeyli çətinləşə bilər.

**QIZ** - Maliyyə problemləriniz qabarmaqdadır. Lakin narahat olmağa dəyməz. Çünki qarşınızda duran günlərdə bu çətinliyiniz aradan qalxacaq. Nahardan sonra uzaq səfərə çıxmaq uğurludur.

**TƏRƏZİ** - Təzadlı ərəfəyə təsadüf edən bu günü bir qədər mübahisəli şəkildə keçirəcəyiniz gözlənilir. Odur ki, özünüzü ələ almalı, insanlarla ünsiyyətinizi kifayət qədər məhdudlaşdırmalısınız.

**ƏQRƏB** - Günün ilk yarısında enerji yığmaq üçün yaxşıca istirahət edin. Çünki saat 13-dən sonra gözlənilmədən aktivləşəcəksiniz. Aldığınız bütün təkliflərə razılıq verin, büdcənizi dağıtmayın.

**OXATAN** - Yaxşı olar ki, bu təqvimi bütünlüklə istirahətə həsr edəsiniz. Onsuz da fəaliyyət və pul qazanmaq istiqamətində heç bir uğur gözlənilmir. Buna baxmayaraq, rəsmi dəvətləri qəbul edin.

**OĞLAQ** - Ürəyinizin səsinə qulaq asın. İmkan verməyin ki, ideyalarınızın istiqamətini kimsə dəyişsin. İnanın ki, belə olarsa bütün cəhdləriniz reallaşacaq. Əyləncələrə aludə olmayın.

**SUTÖKƏN** - Doğmalarınızla münasibətdə bir qədər mübahisə ola bilər. Buna görə də neytral olmalısınız, hətta səhv qarşı tərəfdə olsa belə. Saat 16-19 aralığında hər mənada ehtiyatlı olun.

**BALIQLAR** - O qədər də uğurlu vaxt deyil. Bir tərəfdən səhhətinizdə problemlər, digər tərəfdənsə başa düşülməməyiniz ovqatınızı aşağı sala bilər. Səyyar fəaliyyətdən yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İnsanlar tərk etdi, təbiət sahib çıxdı



Sirli ada görənləri həm gözəlliyi, həm də qeyri-adi təbiiliyi ilə valeh edir. Çində bir ada öz yaşıllığı ilə nağıllardakı əfsanəvi yerləri xatırladır. Dənizin ortasında yerləşən Gouqi adasında, demək olar ki, bütün evlərin üzəri yaşıl yarpaqlarla örtülüdür. Balıqçıların kəndi sayılan həmin yer Şenqsi adalarına daxil olan 400 adadan biridir. Burada sanki zaman dayanıb. İqtisadi vəziyyət yaxşı olmadığı üçün burada yaşayan balıqçılar öz məskənlərini tərk etməli olublar. O zamandan həmin adada heç nə dəyişməyib; nə təbiət, nə də ki, adadakı evlər. İnsanların tərk etdiyi evlərə isə ana təbiət özü sahib çıxıb. Sirli adanın şəkilləri görənləri həm gözəlliyi, həm də qeyri-adi təbiiliyi ilə valeh edir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300